QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 197 (5669) **18 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# 18 Oktyabr Azərbaycan Dövlət Müstəqilliyi Günüdür

*İlham Əliyev: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq"*

Səh 2




Müdrik siyasət son 15 ildə Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib



8

Xarici KİV-lər "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" məqaləsini yaymaqda davam edir



3

Əli Əhmədov Çində səfərdədir



3

"2018-2019 Qlobal Rəqabətlilik Hesabatı" Azərbaycanda inklüziv cəmiyyətin mövcudluğundan xəbər verir



6

"Milli müstəqilliyimiz - mənəvi gücümüz" adlı tədbir keçirilib



5

"Aparılan islahatlar Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın liderlik mövqeyini qoruyub saxlamasına səbəb olub"



4

13

"Meydan" TV radikal müxalifəti bir-birinə vurdu

12

Terror təşkilatının üzvləri Ermənistanda deputat olmaq istəyirlər



16

Fatih Terim 2022-ci ilədək "Qalatasaray"da!



# 18 Oktyabr Azərbaycan Dövlət Müstəqilliyi Günüdür

## *İlham Əliyev: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq"*



***Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. 27 illik müstəqillik tariximizdə Azərbaycanın etibarlı tərəfdaş, təhlükəsizliyə, sabitliyə, multikulturalizmə və s. verdiyi töhfələrin məntiqi nəticəsidir ki, ölkəmiz qısa bir zamanda, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz bu müstəqillik tarixində əldə olunan nailiyyətlərdir.***

Bu gün - 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. 27 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik Sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub-saxlaya bilmişdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə sahib olmaq arzusu özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyinin əbədi və dönməz etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. 1995-ci il 12 noyabrda baş müəllifi Ulu Öndər Heydər Əliyev olan Yeni Azərbaycan Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

### AZƏRBAYCAN SİYASİ, İQTİSADİ, SOSİAL VƏ HƏRBİ SAHƏLƏRDƏ NƏZƏRƏÇARPAN TƏRƏQQİ ƏLDƏ EDİB

"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna hörmətdən, tezliklə Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan, ən əsası isə, Azərbaycanın artıq öz sərvətlərinə tam sahiblik etdiyinə etibar və əminlikdən yaranmışdı.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

### "BİZİM XOŞBƏXTLİYİMİZ ONDADIR Kİ, MÜSTƏQİL, AZAD DÖVLƏTDƏ AZƏRBAYCAN RESPUBLİKASININ VƏTƏNDAŞI KİMİ YAŞAYIRIQ"

Beləliklə, vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub- saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. Bu, müasir Azərbaycan insanının xoşbəxtliyidir. Dövlət başçısı Cənab İlham Əliyevin dediyi kimi: "Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq".

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Ulu Öndər Heydər Əliyevin strateji xəttini siyasi-iqtisadi, sosial və s. kimi bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib.

### "AZƏRBAYCAN BUNDAN SONRA ANCAQ UĞURLA İNKİŞAF EDƏCƏK, ÖLKƏMİZİN BÖYÜK POTENSİALI VAR"

Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır: "Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var".

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahədə ciddi nailiyyətlərin əldə olunması, artıq 15 ildən çoxdur ki, əsas priortet olaraq qarşıya qoyulub. Hazırda Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub. Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", Yer səthini müşahidə edən "Azersky" peyki, bu yaxınlarda orbitə çıxarılan "Azerspace-2" peyki ölkəmizin iqtisadi gücünü nümayiş etdirməklə yanaşı, hər il Azərbaycanın milyonlarla dollar gəlir əldə etməsinə imkan yaradır.

Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. "ASAN Xidmət" şəbəkəsi, ünvanlı sosial yardım, aztəminatlı ailələrin əlverişli şərtlərlə mənzillə təmin olunması və digər layihələr dövlətin sosial yönümlü siyasətinin göstəricisidir.

### MÜSTƏQİL AZƏRBAYCANIN TARİXİ GERÇƏKLİKLƏRİ

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Elə Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi bu nüfuzun və inamın göstəricisidir. Ölkəmizdə biri-birinin ardınca təşkil olunan beynəlxalq tədbirlər "Eurovision" Mahnı Yarışması, ilk Avropa Oyunları, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Bakı Humanitar Forumu, İslam Həmrəyliyi Oyunları və onlarla belə möhtəşəm beynəlxalq tədbirlər Azərbaycanda müxtəlif millətlərin sülh və qardaşlıq şəraitində yaşadığı məkanda keçirilir.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycanın ötən illərdəki uğurlarının fonunda işlənib- hazırlanan və təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmağa istiqamətlənib. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş rəqabətqabiliyyətli ölkə olacaq.

Qeyd edilənlər göstərir ki, Azərbaycan iqtisadi gücə malik dinamik inkişaf edən ölkədir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın uğurlu inkişafı, bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq".

Bütün bu və ya digər amillər 27 illik müstəqil Azərbaycanın tarixi gerçəkləridir.

***Zümrüd BAYRAMOVA***

# Xarici KİV-lər “On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi” məqaləsini yaymaqda davam edir




Məqalədə Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizdə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, əhalinin təhlükəsizliyinin, insanların əsas hüquq və azadlıqlarının, ölkənin əmin-amanlığının təmin edilməsi, vətəndaşların rifah halının yüksəlməsi, Azərbaycanın müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınması, beynəlxalq nüfuzunun artması istiqamətində görülən işlərdən ətraflı bəhs edilir. Həmçinin ölkəmizin iqtisadi sahədə uğurlarından, dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan nəhəng transmilli energetika və nəqliyyat layihələrindən, demokratik təsisatların möhkəmlənməsi, siyasi plüralizmin təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasını və inkişafı istiqamətində həyata keçirilən ardıcıl siyasətdən söhbət açılır.

***Bir sıra ölkələrin kütləvi informasiya vasitələri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun “On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi” sərlövhəli məqaləsini yaymaqda davam edir.***

AZƏRTAC xəbər verir ki, İranın “İRNA” xəbər agentliyi, Qazaxıstanın “Rezonans”, Gürcüstanın “Newsday”, “Gaxa”, Özbəkistanın “Kun.uz”, Qırğızıstanın “Goldenbridgenews”, Ukraynanın “Versii”, Moldovanın “Tribuna” portalları, Türkiyənin “Sanalbasın”, “Bafra55” saytları, “Gazetekars” qəzeti Əli Həsənovun bu məqaləsinə yer veriblər. Bundan başqa, Türkiyənin BİLGESAM (Müdrik İnsanlar Strateji Araşdırmalar Mərkəzi) Araşdırmalar Mərkəzi məqaləni tam şəkildə öz saytında yerləşdirib.




# BƏƏ-nin “Aviamost” qəzetində “Azərbaycanın Müstəqillik Günü” sərlövhəli məqalə dərc olunub




Birləşmiş Ərəb Əmirliklərində böyük oxucu auditoriyasına malik olan ərəb, ingilis, rus və çin dilli “Aviamost” qəzetində Azərbaycanın BƏƏ-dəki səfiri Daşqın Şikarovun “Azərbaycanın Müstəqillik Günü” sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə 18 oktyabr tarixində Azərbaycanın Dövlət Müstəqillik Gününü qeyd etdiyini bildirən səfir deyib ki, 27 il bundan əvvəl uzun illər müstəqillik həsrətində olan Azərbaycan xalqı qarşısında duran bütün çətinliklərə tab gətirərək, 1991-ci il 18 oktyabr tarixində müstəqillik haqqında Konstitusiya Aktını qəbul edib.

Diplomat müstəqilliyin qorunub-saxlanmasının onun əldə edilməsindən daha çətin vəzifə olduğunun tarix tərəfindən sübuta yetirildiyini vurğulayaraq qeyd edib ki, Azərbaycan XX əsrdə iki dəfə müstəqillik qazanmaq imkanı əldə edib. İslam dünyası və Şərqdə 1918-ci ilin 28 may tarixində qurulmuş ilk dünyəvi demokratik dövlət cəmi 23 ay yaşayıb, xarici qüvvələrin müdaxiləsi nəticəsində süquta uğrayıb. Azərbaycan Xalq Cümhuriyyəti dünyanın 20-dən çox ölkəsi ilə əlaqələr qurmuş, dövlətin rəsmi simvolları və Azərbaycan vətəndaşlığı haqqında əsasnamə qəbul edilmiş, kişi və qadınların bərabər hüquqlara malik olmaları tanınmışdır. Cümhuriyyət dövründə icra, qanunvericilik və məhkəmə hakimiyyətlərinin tam müstəqilliyi təmin olunmuş, Azərbaycan Silahlı Qüvvələri, Xəzər dəniz donanması yaradılmış, Azərbaycan Dövlət Universiteti təsis edilmiş, yüzlərlə gəncə Avropanın aparıcı universitetlərində təhsil almaq üçün təqaüdlər ayrılmışdı.

Müəllif vurğulayıb ki, Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan müstəqilliyini bərpa etmək üçün yenidən imkan əldə etdi. 1991-ci il Azərbaycan üçün mürəkkəb, lakin şərəfli il oldu. Həmin dövrdə xalqın ağrısı, qəzəbi, gözləntiləri ən yüksək nöqtəyə çatmışdı. Azərbaycan xalqının ardı kəsilməyən nümayişlərə başladığını söyləyən diplomat qeyd edib ki, 1990-cı il yanvarın 20-də xalqımıza qarşı amansız qırğın törədildi. Lakin sovet tankları müstəqilliyə aparan yolun qarşısını ala bilmədi. Yüzlərlə oğul-qızını qurban verən Azərbaycan yeni həyata, yeni reallıqlara qədəm qoydu. Nəhayət, Azərbaycan parlamenti 1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyinin bərpa olunması haqqında Konstitusiya Aktını qəbul etdi. Sənədə əsasən, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edildi.

Məqalədə bildirilib ki, 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına dəstəklə bağlı keçirilən ümummilli referendumda səs verənlərin 95 faizi iştirak edərək yekdilliklə ölkənin müstəqilliyini dəstəklədi. Müstəqilliyini elan etmiş Azərbaycanı dünya ölkələri, o cümlədən BƏƏ tərəfindən tanındı, 1992-ci il mayın 2-də Azərbaycan BMT-nin üzvlüyünə qəbul edildi. D.Şikarov yazıda ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının yüksək templərlə inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, təbii sərvətlərlə zəngin olan Azərbaycan enerji resurslarını Avropaya ixrac edir və bu regionun enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynayır. Əlverişli coğrafi yerləşməsindən məharətlə istifadə edən ölkə rəhbərliyi Azərbaycanı Şimal-Cənub, Şərq-Qərb nəqliyyat qovşağına çevirə bilib. 10 milyon əhalisi olan Azərbaycan Cənubi Qafqaz regionunda nüfuz sahibi, regionda əsas sərmayəçi ölkədir. Bütün bunlar iqtisadi, sənaye, infrastruktur, kənd təsərrüfatı, idman və turizm sahələrinin inkişafı ilə müşahidə olunur.

## Əli Əhmədov Çində səfərdədir



Dünən Baş nazirin müavini, YAP sədrinin müavini - İcra katibi Əli Əhmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Çin Xalq Respublikasının himayəsi ilə keçirilən Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik Konfransında iştirak etmək üçün Pekin şəhərinə yola düşüb.

## “Mehriban qonşuluq münasibətləri qurulmadan Ermənistanda dayanıqlı inkişafa nail olmaq mümkün deyil”



Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda Ermənistan hökumətinin anlayış göstərəcəyinə ümid edir. Trend-in məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov EURACTIV jurnalına müsahibəsində deyib. Nazir bildirib ki, mehriban qonşuluq münasibətləri qurulmadan dayanıqlı inkişafa nail olmaq mümkün deyil: “Ən əsası, erməni qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı və məcburi köçkünlər öz yurdlarına qayıtmalıdır”.

E.Məmmədyarov qeyd edib ki, Ermənistan rəhbərliyi danışıqların gedişi ilə bağlı maarifləmə prosesinə ehtiyac duyur: “Fikrimcə, biz əvvəlki rəhbərliklə irəliləyişə nail olmuşduq, amma indi yeni rəhbərlik var və ola bilər ki, onlara danışıqlar prosesində baş verənləri anlamaq üçün bir qədər çox vaxt lazım olsun”.

## XİN: Dövlət Dumasının üzvünün Dağlıq Qarabağa qanunsuz səfərdə iştirakının müqabilində Rusiya XİN-in açıqlaması təsirli xarakter daşımır



Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın Rusiya Dövlət Dumasının üzvü və digər Rusiya vətəndaşlarının iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərinə dair şərhində “münaqişənin bütün tərəfləri” ifadəsinin işlədilməsi təəccüb doğurur. AZƏRTAC xəbər verir ki, bu fikir Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin KİV-in sorğusuna cavabında yer alıb. ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi Rusiya XİN çox yaxşı bilir ki, münaqişənin iki tərəfi var və bunlar Ermənistan və Azərbaycandır. ATƏT-in 1992-ci il Helsinki nazirlər şurasının yekun bəyanatı və digər sənədlərində münaqişə tərəfləri olaraq Ermənistan və Azərbaycan təsbit olunub. Hazırda da Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar bu formatda aparılır. Hesab edirik ki, Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Svetlana Jurovanın da bu qanunsuz və münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirən təxribatçı səfərdə iştirakının müqabilində Rusiya XİN-in açıqlaması təsirli xarakter daşımır.

## Senatorlar Temmi Dakuort və Riçard Durbin ABŞ-da yaşayan azərbaycanlıları təbrik ediblər

İllinoys ştatından olan senatorlar Temmi Dakuort və Riçard Durbin Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 27-ci ildönümü münasibətilə İllinoys Azərbaycan icmasının üzvlərinə təbrik məktubları göndəriblər. AZƏRTAC xəbər verir ki, təbrik məktubları ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan mərkəzinə ünvanlanıb. Məktublarda vurğulanır ki, bu təşkilatın fəaliyyəti, onun həyata keçirdiyi təhsil və xeyriyyə tədbirləri Çikaqonun ictimai həyatını zənginləşdirir. Təşkilatın üzvləri Amerika gənclərini Azərbaycan xalqının tarixi ilə, bu xalqa xas olan dəyərlərlə tanış edirlər. Müraciətdə həmçinin göstərilir ki, bütün dünyadakı 50 milyondan çox azərbaycanlı, o cümlədən ABŞ-dakı 400 minlik Azərbaycan icması müstəqil Azərbaycanı quranların bu işə töhfəsini xatırlayırlar.

# Dünya iqtisadiyyatının Azərbaycan reallığı

## *Azərbaycan dünya ölkələri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrilib*

***Azərbaycan Davos Dünya İqtisadi Forumunun çox nüfuzlu üzvlərindən birinə çevrilib. Bunu təsdiqləyən ən əsas amil isə son forumun hesabatıdır ki, bu hesabatda yeni metodologiyadan istifadə olunub və burada həm ümumi istiqamət, həm də indikatorlar üzrə qiymətləndirmə aparılıb. Belə ki, maraqlı məqamlardan biri, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatının tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilməsidir. Burada qlobal trendlər nəzərə alınmaqla, hesabatın metodologiyasında dəyişikliklər o qədər dərin və əhatəli olunub ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil "4.0" kimi təqdim edib.***




Bu isə, onu deməyə əsas verir ki, "Qlobal Rəqabətlilik Hesabatı-2018/2019" yeni dövrün ilk hesabatıdır. Əvvəlki illərdən fərqli olaraq hesabatın metodologiyası ciddi şəkildə dəyişdiriləәrək, hesabata yeni indikatorlar daxil edilib. Ümumilikdə, əvvəlki hesabatın 114 indikatorundan 84-ü (74 faizi) çıxarılıb, 68 yeni indikator isə daxil edilib. Beləliklə, hesabatda mövcud 98 indikatorun 70 faizi tamamilə yenidir. Ən əsas amil isə, Azərbaycanın 7-ci onluğa daxil olmaqla, 69-cu yerdə qərarlaşmasıdır. Məhz bu baxımdan, hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşmasıdır. Hesabatın institutlar, infrastruktur, İKT-nin istifadə səviyyəsi, səhiyyə, əmək bazarı, biznes dinamikliyi və innovasiya potensialı sütun indikatorları üzrə Azərbaycanın mövqelərinin yaxşılaşmasının Qlobal Rəqabətlilik Hesabatı tərəfindən qeydə alınmasıdır.

Sözügedən məsələ ilə bağlı millət vəkilləri və ekspertlər bildirirlər ki, növbəti illərdə islahatların dərinləşməsi Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxaracaq və Azərbaycan iqtisadi reytinqinə görə, beynəlxalq səviyyədəki liderlik mövqeyini daha da möhkəm təməllərə əsaslandıracaq.

### Sədaqət Vəliyeva: "Azərbaycan dünya ölkələri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrilib"

"Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı Azərbaycan dövlətinin uğurlarını və nailiyyətlərini nümayiş etdirməklə yanaşı, dünyanın siyasi və iqtisadi elitasının dövlətimizə olan marağını ortaya qoyur. Hesabatı təhlil etdikdə, aydın şəkildə görürük ki, son dövrlər ərzində sürətlə inkişaf edən Azərbaycan dünya ölkələri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrilib". Bunu "SƏS" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib. Sədaqət Vəliyeva bildirib ki, hesabatda diqqət çəkən məqamlardan biri sosial infrastruktur məsələləridir: "Hesabatda aydın şəkildə qeyd edilib ki, təhsil və bacarıqlar, biznesin dinamikliyi kimi indikatorlar üzrə Azərbaycan mövqelərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Xüsusilə, qeyd edilməsi vacib olan məqam Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanmasıdır. Məhz bu məqam bu gün Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsində sosial dövlət quruculuğu prosesində ölkəmizin nə qədər irəlilədiyini nümayiş etdirir".

Millət vəkili hesabatda qeyd edilən infrastruktur məqamlarına da toxunub: "Hesabatda vurğulanır ki, Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal - 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlib. Bu, heç də təsadüfi deyildir. Çünki Azərbaycanda Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial infrastruktur sahəsində ciddi nailiyyətlər əldə olunub. Təsəvvür edin ki, son 15 il ərzində Azərbaycanda 440-dan çox körpü tikilib, 3100-dən çox məktəb inşa edilib, 642 tibb müəssisəsi, 43 olimpiya-idman kompleksi tikilib, 265 min məcburi köçkün yeni evlərlə və mənzillərlə təmin edilib, 30 elektrik stansiyası tikilib, bölgələrdə qazlaşdırma 95 faizə çatmaq üzrədir, fasiləsiz içməli su ilə təminatı 70 faizə çatıb, 4 su anbarı - Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay su anbarları tikilib, 100 minlərlə hektar suvarılmayan torpaqlara su gətirilib, 12 min 300 kilometr yol çəkilib. Bütün bunlar, birmənalı tərzdə Azərbaycan xalqının rahat yaşamasına xidmət edir".

### Aydın Mirzəzadə: "Azərbaycan artıq Davos Dünya İqtisadi Forumunun arzu olunan və çox nüfuzlu üzvlərindən birinə çevrilib"

Sözügedən məsələ ilə bağlı Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, bugünkü uğurlu nailiyyətlərin nəticəsini təsdiqləyən növbəti amil Davos Dünya İqtisadi Forumunun növbəti hesabatıdır: "Davos İqtisadi Forumu artıq uzun müddətdir ki, dünyada ilin hadisələrindən birinə çevrilir, qeyri-rəsmi formada dövlət və hökumət başçılarının, iri biznes nümayəndələrinin, ayrı-ayrı sahələrdən ekspertlərin görüşləri, ümumilikdə, problemlərin həlli üzrə optimal bir variant tapmağa kömək edir. Məlum olduğu kimi, Azərbaycan artıq Davos Dünya İqtisadi Forumunun arzu olunan və çox nüfuzlu üzvlərindən birinə çevrilib. Prezident İlham Əliyevin keçirilən forum zamanı iri şirkət rəhbərləri ilə görüşləri həm onların Azərbaycana investisiya qoymasına, həm də Azərbaycanın əhəmiyyətli layihələrə investisiya qoyuluşu, yeni texnologiyaların əldə edilməsi və digər mühüm məsələlər barədə müzakirələr aparmalarına imkan verir. Həmçinin, forum çərçivəsində Azərbaycana dost olan ölkələrin rəhbərləri ilə görüşü ikitərəfli münasibətləri möhkəmləndirməyə imkan verir".

A.Mirzəzadə onu da vurğulayıb ki, Prezident İlham Əliyevin İqtisadi Forum çərçivəsində çıxışları dünyanın Azərbaycana böyük diqqətini göstərib: "Hesab edirəm ki, həmin görüşlərdə ölkə başçımıza ümumən verilən suallar Azərbaycan təcrübəsini öyrənməyə, Azərbaycanla bağlı layihələrin genişləndirilməsinə xidmət edir".

### Vüqar Bayramov: "Azərbaycan sosial və səhiyyə istiqamətləri üzrə də aparıcı ölkələrlə yanaşı sıralardadır"

İqtisadçı-ekspert Vüqar Bayramov bildirib ki, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın mövqeyini müsbət qiymətləndirmək olar: "Dünya İqtisadi Forumu dünyanın ən aparıcı iqtisadi qurumlarındandır. Bu, yeganə forumdur ki, dünyanın aparıcı hökumət və dövlət liderlərini bir araya yığır. Bu forumun hazırladığı hesabat, praktik olaraq, dünyada qlobal siyasətə təsir edəcək hesabatlardır. Xüsusən də, illik görüşlərində qlobal müzakirənin də aparılması ondan xəbər verir ki, Dünya İqtisadi Forumu qlobal məsələlərə təsir imkanı olan forumdur".

V.Bayramov onu da vurğulayıb ki, son hesabatda yeni metodologiyadan istifadə olunub və burada həm ümumi istiqamət, həm də indikatorlar üzrə qiymətləndirmə aparılıb: "Hesabatın təhlili göstərir ki, Azərbaycan bir sıra istiqamətlər üzrə aparıcı mövqeyini qoruyub saxlayıb. İndikatora görə, Azərbaycanın mövqeyi biznesin qeydiyyatdan keçmə indeksinə görə 17-ci, müflisləşmə normativ-hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci yerdə bərqərar olub. Bu da müsbət məqam kimi qiymətləndirilə bilər".

Beləliklə, bütün bunlar, onu deməyə əsas verir ki, zəngin təbii ehtiyatlara malik olan, əlverişli coğrafi-siyasi məkanda yerləşən Azərbaycanın beynəlxalq aləmlə əməkdaşlığa töhfələri davamlıdır və yüksək dəyərləndirilir. Ümumdünya İqtisadi Forumunun bir tərəfdən, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, digər tərəfdən, ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində əldə olunan uğurlara dəyərin təzahürüdür.

**RƏFİQƏ KAMALQIZI**

# "Aparılan islahatlar Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın liderlik mövqeyini qoruyub saxlamasına səbəb olub"

***Ölkəmizdə aparılan iqtisadi islahatlar Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında biznes üzrə bütün indikatorlarda Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına, öz liderlik mövqeyini qoruyub saxlamasına səbəb olub. Bu barədə AZƏRTAC-a İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təmsilçisi Nicat Hacızadə deyib.***



N.Hacızadə qeyd edib ki, Qlobal Rəqabətlilik Hesabatı yeni nəsil metodologiya əsasında hazırlanıb. Əvvəlki hesabatın 114 indikatorundan 84-ü çıxarılıb, 68 yeni indikator isə daxil edilib. Ümumilikdə, hesabatda 98 indikatorun 70 faizi tamamilə yenidir. Azərbaycanın yeni nəsil metodologiyaya baxmayaraq, bir sıra alt indikatorlarda, xüsusilə 12 əsas sütun indikatorundan 7-si üzrə mövqeləri kifayət qədər yaxşılaşıb. Buraya institutlar, infrastruktur, İKT-nin istifadə səviyyəsi, səhiyyə, əmək bazarı, biznes dinamikliyi və innovasiya potensialı daxildir. Hesabatın xüsusi bir səhifəsində Azərbaycanda sosial bərabərliyin ən yüksək səviyyədə olması qeyd olunub. Burada ölkəmiz ABŞ ilə də eyni koordinat oxunda göstərilib. Bundan əlavə "Doing Business" hesabatında olduğu kimi elektrik təchizatı səviyyəsinə görə ölkəmiz yüksək qiymətləndirilib və 100 faiz balla dünyada ilk pillədə qeydə alınıb. Eyni zamanda, ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə yeni nəsil metodologiya əsasında hazırlanmış hesabatda Azərbaycan lider mövqelərini qoruyub. "Prezident İlham Əliyev tərəfindən ölkəmizdə aparılan iqtisadi islahatlar bu hesabatda biznes üzrə bütün indikatorlarda Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına, öz liderlik mövqeyini qoruyub saxlamasına səbəb olub. Qarşıdakı müddətdə Azərbaycanda aparılacaq islahatlar ölkəmizin mövqeyini daha da yaxşılaşdıracaq", - deyə N.Hacızadə qeyd edib.

# “Milli müstəqilliyimiz - mənəvi gücümüz” adlı tədbir keçirilib

***Dünən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə “Milli müstəqilliyimiz - mənəvi gücümüz” adlı tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə millət vəkilləri, şəhid ailələri və digər qonaqlar iştirak ediblər.***







Tədbiri giriş sözü ilə açan Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib ki, hər bir insanın həyatında müəyyən dəyərlər var və bu dəyərlər mühüm əhəmiyyət kəsb edir: “Tarixən Azərbaycan ərazilərində bir çox dövlətlər qurulub, müxtəlif işğalçılar torpaqlarımızı zəbt edib, lakin xalqımızın dəfələrlə müstəqilliyini qazanması Azərbaycan xalqının istiqlal əzmini göstərir. 1991-ci ildə xalqımızın iradəsi, əzmi nəticəsində müstəqilliyimiz yenidən əldə edildi. Lakin həmin dövrdə müstəqilliyimiz üzərində qara buludlar əsirdi, müstəqilliyimiz üçün ciddi təhdidlər yaranmşdı. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması müstəqilliyimizi bu bəlalardan xilas etdi və müstəqilliyimiz möhkəmləndi. Bu gün beynəlxalq aləmdə mürəkkəb bir vəziyyət var, lakin cənab Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş və qətiyyətli siyasət nəticəsində Azərbaycanın müstəqilliyi qorunur və daha da inkişaf etdirilir. Müstəqilliyimiz elə bir dəyərdir ki, bir çox dəyərləri birləşdirir və möhkəmləndirir”.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə SƏS TV tərəfindən çəkilmiş Azərbaycanın müstəqilliyi və inkişafı haqqında film nümayiş olunub.

Tədbirdə çıxış edən millət vəkili Elman Nəsirov bildirib: “Azərbaycan müstəqilliyinin 27-ci ildönümünü qeyd edir. 1991-ci il çox gərgin il idi, torpaqlarımız işğal edilirdi, itkilər verirdik. Bir yandan da hakimiyyət uğrunda mübarizə baş qaldırmışdı, ölkə parçalanma ərəfəsində idi, hakimiyyətsizlik, özbaşınalıq hökm sürürdü. Belə bir vəziyyətdə Azərbaycanın müstəqilliyi məsələsi təhlükə altında idi. O zamankı hakimiyyət Azərbaycanın müstəqilliyinin elan olunmasını ləngidirdi, başqa sovet ölkələri müstəqilliklərini elan etsə də, Azərbaycanın müstəqilliyinin elan edilməsi ləngiyirdi. Nəhayət, uzun prosesdən sonra müstəqillik elan edildi”.

E.Nəsirov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin addımları müstəqilliyimizi şərtləndirdi: “Heydər Əliyev ilk dəfə Azərbaycanın üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının Ali Sovetinə gətirdi, Naxçıvanın adından “Sovet Sosialist Respublikası” sözlərini götürdü. Azərbaycan qarşısında məsələ qaldırdı ki, rəsmi Bakı da bu addımı atsın. Azərbaycanın həqiqi müstəqilliyi Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başladı və Azərbaycan sabitlik və inkişaf yoluna qədəm qoydu. Artıq 1996-cı ildə Azərbaycanın iqtisadiyyatı tam bərpa olunmuşdu və inkişaf edirdi. Bu gün cənab Prezident İlham Əliyev həmin siyasəti çox uğurla davam etdirir, Azərbaycan dünyada böyük nüfuza malik bir ölkəyə çevrilib. Bu gün Azərbaycanın valyuta ehtiyatları 45 milyard dollardır, bütün parametrlər üzrə Azərbaycan çox güclənib, böyük nailiyyətlər əldə olunub və bütün bunlar Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsidir”.

Daha sonra çıxış edən millət vəkili Aydın Mirzəzadə bildirib ki, müstəqillik Azərbaycan xalqının genindədir: “Azərbaycan xalqı mənəvi gücü sayəsində müstəqilliyə nail oldu. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində xidmətləri əvəzsizdir. Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtması ölkəmizi müstəqilliyimizin ilk illərində yaranmış bütün bəlalardan xilas etdi. Bu gün ümummilli lider Heydər Əliyevin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkəmiz bütün sahələrdə mühüm inkişafa nail olub, beynəlxalq aləmdə böyük nüfuz qazanıb”.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda vəziyyət olduqca acınacaqlı idi, müstəqilliyimiz böyük təhlükə altında idi: “Azərbaycan parçalanmaq təhlükəsi ilə qarşılaşmışdı, ölkədə özbaşınalıq hökm sürürdü, Bakıda küçəyə çıxmaq mümkün deyildi”.

B.Quliyev qeyd edib ki, o zaman Azərbaycan xalqına bir lider lazım idi: “Bu səbəbdən 1992-ci il 16 oktyabrda 91 Azərbaycan ziyalısı “SƏS” qəzeti vasitəsilə müstəqilliyi qorumaq üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Xalq özünə bir lider istəyirdi. Heydər Əliyev xalqın qəlbində idi. Hamı bilirdi ki, Azərbaycanı Heydər Əliyevdən başqa heç kim xilas edə bilməyəcək. Ümummilli lider Heydər Əliyev “SƏS” qəzeti vasitəsilə Azəbaycanın xilas olması konsepsiyasını təqdim etdi və orada hökumətin atmalı olduğu addımları, çıxış yollarını göstərdi. Mən bunu Azərbaycanın “xilas konsepsiyası” adlandırıram. O zaman xalq təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını istəyirdi. Məhz Ulu Öndərin qayıdışı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, ölkəmizi bütün bəlalardan xilas oldu. O zaman Azərbaycanı Lider-xalq sevgisi xilas etdi, bu gün də ölkəmizin möhkəmlənməsinə, inkişafına xidmət edir”. Baş redaktor vurğulayıb ki, Prezident İlham Əliyev Ümummilli Lider tərəfindən qoyulan yolu uğurla davam etdirir: “Cənab Prezidentin 15 illik fəaliyyəti göstərdi ki, O, Ulu Öndərin ən layiqli davamçısıdır. Bu gün cənab Prezidenti xalq sevir və bütün seçkilərdə də sübut edib ki, İlham Əliyevə etimad göstərir, onun siyasətini dəstəkləyir. Cənab Prezidentin bütün siyasətinin mərkəzində insan amili, vətəndaş amili dayanır, xarici siyasətdə isə dövlət marağı, xalq marağı dayanır. Müstəqilliyimiz bizim milli sərvətimizdir, onu göz bəbəyimiz kimi qorumalıyıq”. Tədbirə digər çıxışçıların fikirləri ilə yekun vurulub.

# “Dünya İqtisadi Forumunun hesabatı dünya ölkələrinə Azərbaycan Prezidentinin fəaliyyətinin nəticələri ilə bir daha tanış olmaq imkanı verir”

***Dünya İqtisadi Forumunun tamamilə yeni metodologiya əsasında hazırladığı Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın dünya ölkələri arasında qabaqcıl mövqeyini qoruyub saxlaması təqdirəlayiqdir və qürurvericidir. Bunu Trend-ə açıqlamasında “Bakı xəbər” qəzetinin baş redaktoru, ekspert Aydın Quliyev deyib. Onun sözlərinə görə, Dünya İqtisadi Forumu özünün dövlətlərə yanaşma metodologiyasını dəyissə də, Azərbaycan öz qabaqcıl mövqeyini dəyişməz saxlaya bilib:***



“Bu, olduqca əhəmiyyətli nəticədir və ölkədaxili proseslərin bütün istiqamətlərində Azərbaycanın dinamik artan xətt üzrə getdiyini bir daha təsdiqləyir. Digər bir prinsipial məqam Azərbaycanın təxminən 70-ə yaxın yeni və indiyə qədər praktikada tətbiq olunmamış indikator üzrə böyük nəticələrə nail ola bilməsidir. Bu o deməkdir ki, Azərbaycan hansı indikatorlar üzrə qiymətləndirmələrin dünya üzrə aparılacağını öncədən bilmədən bu istiqamətlərdə iş aparıb və deməli, hansısa hesabatda öncül olmaq yox, əhalinin iqtisadi və rifah vəziyyətinin yaxşılaşdırılması dövlətimizin və şəxsən cənab Prezident İlham Əliyevin fəaliyyətinin aparıcı motivini təşkil edib, edir. Sosial ədalətin səviyyəsinə görə Azərbaycanın ən yüksək yerdə bərqərar olması da ölkədə aparılan siyasətin məntiqinə tam uyğun nəticədir. Azərbaycanda hamının həsəd apardığı sabitliyin, Prezidentə ictimai dəstəyin, millətlər və dinlərarası həmrəyliyin, ümumvətəndaş həmrəyliyinin kökü və təminatı məhz buradadır. Həqiqətən də əgər ölkədə sosial ədalət yüksək səviyyədə olmasa, davamlı sabitlik və daxili etibarlı təhlükəsizlikdən danışa bilmərik”.

Ekspert bildirib ki, biznesin dinamikliyi, təhsil və infrastruktur indikatoru üzrə Azərbaycanın yüksək dünya reytinqi qazanması da reallıqlara tam uyğundur:

“Bu hesabat həm də dünya xalqlarına və dövlətlərə Azərbaycan Prezidentinin fəaliyyətinin məqsədyönlü nəticələri ilə bir daha tanış olmaq imkanı verir. Dünya İqtisadi Forumunun dünya üzrə iqtisadi-sosial müfəttiş rolu oynadığını nəzərə alsaq, Azərbaycanın əldə etdiyi nəticələri heç də hər dövlətin nail ola bilmədiyi uğurlar kimi dəyərləndirmək lazımdır. Hesabat dünyaya bir daha göstərdi ki, Azərbaycan əhalinin sosial rifahının 100 faiz təmin olunduğu ölkədir, ən sürətli biznes qurmaq imkanları yaratmış ölkədir, ətraf mühitlə insan inkisafı arasında möhkəm əlaqə qurmuş ölkədir, infrastruktur layihələrə fasiləsiz önəm verən ölkədir”.

A.Quliyev əlavə edib ki, Dünya İqtisadi Forumunun son hesabatının arxasında Azərbaycan Prezidentinin 15 illik fəaliyyətinin ancaq bir hissəsi dayanır və əgər ölkədə görülən işlərin hamısı Dünya İqtisadi Forumu hesabatının indikatorlarının sırasına daxil edilsəydi, beynəlxalq reytinq göstəricilərimiz daha yüksək olardı: “Ancaq Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət deməyə əsas verir ki, gələcəkdə forumun daha yüksək reytinq tələblərinə cavab verən uğurların möhkəm əsası yaradılıb. İlham Əliyevin siyasəti Azərbaycanın bütün beynəlxalq reytinq göstəricilərinin yeganə təminat mənbəyidir”.

# Bəhruz Quliyev: “Dünya İqtisadi Forumunun hesabatı Azərbaycanda həyata keçirilən inkişaf siyasətinin alternativi olmadığını nümayiş etdirir”



Azərbaycanda reallaşdırılan sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatını möhkəmləndirir, vətəndaşlarımızın sosial rifah halını yüksəldir. Bu baxımdan təsadüfi deyil ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün regional güc kimi diqqət cəlb etməkdədir. Bunu “Səs” Media Qrupunun rəhbəri, ekspert Bəhruz Quliyev deyib.

B.Quliyev bildirib ki, bütün əldə olunan nailiyyətlərimiz həyatımızda olduğu kimi, beynəlxalq hesabatlarda da öz əksini tapır: “Məsələn, ötən gün Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı təqdim edilib. Tamamilə yeni metodologiya əsasında hazırlanmış hesabatda Azərbaycan nailiyyətləri və uğurları ilə ilk yerlərdə qərarlaşıb. Xüsusilə də hesabatda Azərbaycanın dünya səviyyəsində sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi qeyd edilməsi respublikamızda reallaşdırılan islahatların və görülən işlərin yüksək nəticəsini nümayiş etdirir”.

Ekspert qeyd edib ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılmış transmilli layihələr də ölkəmizin dünyadakı nüfuzunu yüksəldir, əhəmiyyətini artırır və mövqeyini gücləndirir: “Bu reallıqdır ki, birbaşa Azərbaycanın təşəbbüsü ilə Xəzər, Qara və Aralıq dənizləri hövzələrini birləşdirən TAP, TANAP, Cənub Qaz Dəhlizi artıq reallığa çevrilib, Qərblə Şərq arasında fasiləsiz nəqliyyat əlaqələrinin qurulması üçün Şimal-Cənub, Şərq-Qərb, eləcə də Avrasiya geostrateji məkanının önəmli layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu ilə ən etibarlı nəqliyyat dəhlizi formalaşdırılıb, regionun ən böyük təniz ticarət limanı yaradılıb və nəticə etibarilə Azərbaycan hazırda Şərq üçün də, Qərb üçün də cəlbedici və əhəmiyyətli ölkə olmaq statusu qazanıb. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan sürətli və dinamik inkişaf edən dövlətlərin sırasında yer alır”.

B.Quliyevin sözlərinə görə, bu gün dünyada ölkələr var ki, onların qaz, elektrik, yol problemləri var, amma Azərbaycan sosial infrastruktur sahəsində dünya ölkələrinə nümunə olacaq səviyyədə işlər görüb: “Elə hesabatda da Azərbaycanın əhalinin elektriklə təchizatı səviyyəsinə görə 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəldiyi vurğulanıb. Dünya İqtisadi Forumunun hesabatı Azərbaycanda həyata keçirilən inkişaf siyasətinin alternativi olmadığını nümayiş etdirir. Eyni zamanda, Azərbaycanın Türkiyə, Serbiya, Cənubi Afrika Respublikası, Xorvatiya kimi ölkələrlə eyni cərgədə durması ölkəmizin dinamik inkişafından və tərəqqisindən xəbər verir”.

# Hikmət Babaoğlu: “2018-2019 Qlobal Rəqabətlilik Hesabatı” Azərbaycanda inklüziv cəmiyyətin mövcudluğundan xəbər verir



Bu günlərdə Dünya İqtisadi Forumunun “2018-2019 Qlobal Rəqabətlilik Hesabatı” dərc olunub. Son hesabatda Azərbaycan bir sıra indiqatorlar üzrə öz mövqeyini möhkəmləndirib və irəliyə çıxıb. Yeni metodologiya əsasında müəyyənləşdirilən “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycanın bir daha mövqeyini möhkəmləndirməsi onun sosial-iqtisadi inkişafının davamlı və dayanıqlı olmasından xəbər verir. “2018-2019 Qlobal Rəqabətlilik Hesabatı” yeni dövrün ilk hesabatıdır və əvvəlkilərdən fərqli olaraq, 68 yeni indikator daxil edilməklə aparılıbdır. Azərbaycanın bir sıra yüksək göstəricilərə malik indikatorları var. Lakin hazırda yeni metodologiyaya əsasən bunların nəzərə alınmamasına baxmayaraq, ölkəmiz yenə də ön sıralarda qərarlaşıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Milli Məclisi deputatı vurğulayıb ki, bütövlükdə, hesabat zamanı 12 sütun indikator üzrə qiymətləndirmələr aparılıb və 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıbdır. Buraya infrastruktur, səhiyyə, informasiya kommunikasiya texnologiyalarının səviyyəsi, əmək bazarı, biznesin dinamikliyi və innovasiya potensialı daxildir. Adları qeyd olunan indikatorlar üzrə Azərbaycanın mövqeyi xüsusi olaraq çəkilir, hətta bir sıra göstəricilər üzrə Azərbaycan birinci yerdədir. Məsələn, elektrik enerjisi ilə təchizatın səviyyəsinə görə Azərbaycan 100 faiz bal toplamaqla, ilk pilləyə yüksəlib. Bu isə mühüm bir göstəricidir.

Eyni zamanda, ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə Azərbaycan lider mövqelərdən birinə yüksələ bilib. Bu, Azərbaycanda inklüziv cəmiyyətin mövcudluğundan xəbər verir. Bu, o deməkdir ki, intellektual potensialına və qabiliyyətinə uyğun olaraq hər bir Azərbaycan vətəndaşı cəmiyyətin bütün sərvətindən istifadə edə bilir. H.Babaoğlu qeyd edib ki, bundan başqa, Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi göstəricisinə görə 31-ci yerdə qərarlaşıb. Bu, bir daha Azərbaycanda sahibkarlığın və biznesin inkişafı ilə bağlı yaradılmış mühüm iqtisadi islahatlarla əlaqədardır. Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycanda hazırkı mərhələdə sosial-iqtisadi inkişaf istiqamətində atılan addımlar strateji baxımdan doğrudur və Azərbaycan iqtisadiyyatı bundan sonrakı mərhələdə də bütün sosial-iqtisadi parametrlər üzrə inkişaf üçün yeni əsaslar yaratmaqla bunu gələcəkdə də təmin edəcəkdir.

# Vüqar Rəhimzadə: “Ötən 27 ildə Azərbaycan zəngin və şərəfli inkişaf yolu keçib”



“Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 27 il ötür. Bu rəqəm zaman baxımından qısa, inkişaf baxımından isə kifayət qədər zəngindir. Müstəqilliyinin ilk illərində böyük təlatümlər yaşayan, ağır durumda olan Azərbaycan 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə ilə yenidən hakimiyyətə qayıtmasından sonra uğurlu inkişaf mərhələsinə qədəm qoyub. İllər keçdikcə ölkəmizin dünya birliyindəki siyasi çəkisi, iqtisadi gücü daha da artmağa başlayıb. 2003-cü ildən etibarən möhtərəm Prezidentimiz İlham Əliyevin gərgin səyləri nəticəsində bu inkişaf şaxələndirilib, ölkəmizin dövlət müstəqilliyi daha da möhkəmləndirilib. Bir sözlə, ötən 27 ildə Azərbaycan zəngin və şərəfli inkişaf yolu keçib”. Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından ötən 27 ildə böyük uğurlar qazanılıb: “Ölkəmizin əldə etdiyi yüksək göstəricilər, sürətli inkişafı beynəlxalq hesabatlarda öz əksini tapır. Belə ki, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatının yeni metodologiyası əsasında ilk dəfə qiymətləndirilərək Türkiyə, Serbiya, Gürcüstan, Cənubi Afrika Respublikası və Xorvatiya ilə birlikdə 7-ci onluğa daxil olmaqla 69-cu yerdə qərarlaşıb. Yeni hesabatda ölkəmizin mövqeləri kifayət qədər yaxşılaşıb. Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi qeyd edilib. Bununla yanaşı, Azərbaycan 140 ölkə arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yeri tutub. Bu cür yüksək nəticələrin qazanılması son illər möhtərəm Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən mükəmməl iqtisadi islahatların sayəsində mümkün olub. Hesab edirəm ki, bu nəticələr ölkəmizin gələcəkdə digər indikatorlar üzrə də daha yaxşı nəticələr əldə etməsi üçün yeni imkanlar yaradacaq”.

# Türkiyəli nazir: “Bakı-Tbilisi-Qars vasitəsilə yük daşımaları 3 milyon tona çatdırılacaq”

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu vasitəsilə Türkiyə, Azərbaycan və Qazaxıstan arasında hər həftə 3 yük reysi həyata keçirilir. Bunu Trend-ə Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan deyib. Onun sözlərinə görə, Türkiyə BTQ vasitəsilə Azərbaycan, Gürcüstan, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Rusiya kimi ölkələrə tikinti materialları, yuyucu vasitələr, ərzaq və kənd təsərrüfatı məhsulları ixrac edir və öz növbəsində, taxıl, dəmir və sink idxal edir.

Nazir onu da qeyd edib ki, dəmir yolunun istifadəyə verildiyi gündən 102 konteyner qatarı ilə 100 min ton yük daşınıb: “BTQ dəmir yolu vasitəsilə uzunmüddətli perspektivdə illik 17 milyon ton, ortamüddətli perspektivdə isə 3 milyon ton yük daşınması planlaşdırılır”.

# İordaniyalı senator: “Beynəlxalq birlik Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün daha qətiyyətli addımlar atmalıdır”



“İordaniya Haşimilər Krallığı ilə Azərbaycan Respublikasının tarixən möhkəm dostluq və qardaşlıq münasibətləri bağlayır”. Tanınmış iordaniyalı siyasətçi, İordaniya Senat Şurasının üzvü, Əhali və inkişaf üzrə Ərəb-Afrika parlament forumunun baş katibi, İordaniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, İordaniya parlamentinin Azərbaycan ilə Dostluq Qrupunun üzvü Mərvan əl-Hmud bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Onun sözlərinə görə, Kral II Abdulla ilə Prezident İlham Əliyev arasında yüksək səviyyədə səmimi dostluq münasibətləri xalqlarımız üçün xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, İordaniya və Azərbaycan liderlərinin müasir dövrün bir sıra mühüm məsələləri barədə mövqeləri üst-üstə düşür, onlar qarşılıqlı maraq doğuran bir çox məsələləri sıx əlaqələndirirlər. Senator Azərbaycan-İordaniya parlamentlərarası əlaqələrinin səviyyəsini də yüksək qiymətləndirərək qeyd edib ki, iki ölkənin parlamentariləri daim əlaqə saxlayır, müxtəlif məsələləri uzlaşdırır, qarşılıqlı səfərlər çərçivəsində xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini müzakirə edirlər. Qarşılıqlı fəaliyyətin bu formatı xalqlarımızın yaxınlaşmasına, onların əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlıq üfüqlərini genişləndirməyə kömək edən yeni imkanlar yaradılmasına müsbət təsir göstərir.

Mərvan əl-Hmud Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mövzusuna da toxunaraq vurğulayıb ki, dövlətlərimizin liderləri Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan mənafelərinə uyğun olaraq dinc və ədalətli yolla nizamlanmasına nail olmaq üçün BMT-də və digər beynəlxalq məkanlarda səylərini sıx əlaqələndirirlər. O qeyd edib ki, beynəlxalq birlik, xüsusən BMT Dağlıq Qarabağ münaqişəsinin və dünyada mövcud olan digər münaqişələrin, məsələn Fələstin probleminin nizamlanması üçün daha qətiyyətli addımlar atmalıdır. İordaniyalı senator xüsusi vurğulayıb ki, beynəlxalq birlik Ermənistana təsir göstərməli, onu BMT-nin müvafiq qətnamələrini yerinə yetirməyə, işğal edilmiş əzəli Azərbaycan torpaqlarından öz qoşunlarını çıxarmağa məcbur etməlidir.

# Dünya İqtisadi Forumu reallığı açıqlayıb

## "Prezident İlham Əliyevin rəhbərliyi ilə biz hələ çox uğurlara və nəticələrə nail olacağıq"

***Məlum olduğu kimi, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilib. Hesabatda Azərbaycanın iqtisadi göstəriciləri ən yüksək formada qiymətləndirilib. Söhbət etdiyimiz müsahiblərimiz Azərbaycanın bütün bu iqtisadi uğurları aparılan düzgün sosial-iqtisadi siyasətin bəhrəsi olduğunu bildirdilər.***

### Kamilə Əliyeva: "Azərbaycan gələcəkdə daha böyük sosial-iqtisadi uğurlara imza atacaq"



- Söz yox ki, hər hansı bir ölkənin Dünya İqtisadi Forumunun reytinq siyahısında mövqelərini yaxşılaşdırması həmin ölkə haqqında dünyanın qlobal maliyyə və biznes subyektlərində həmin ölkə iqtisadiyyatına münasibətinin yaranmasına yardımçı olur. Azərbaycan iqtisadiyyatı qlobal rəqabətlilik indeksinə görə ötən illə müqayisədə yüksək göstəricilərlə təqdim olunması aparılan siyasətin düzgün və əsaslı olduğunu göstərir. Azərbaycanın qeyd olunan reytinq siyahısında bu il də öz mövqeyini möhkəmləndirməsi ölkədə aparılan islahatlarla birbaşa bağlıdır. Açıqlanan hesabat bir daha təsdiq edir ki, Azərbaycan iqtisadiyyatı onun qlobal rəqabətliliyini müəyyən edən 12 əsas göstəricinin 11-də irəliləyiş əldə edib. Biznes mühitinin yaxşılaşması, iqtisadi imkanların genişlənməsi və digər müsbət göstəricilər Azərbaycanın gələcəkdə daha böyük sosial-iqtisadi uğurlara imza atacağından xəbər verir.

### Millət vəkili Elşən Musayev: "Qlobal Rəqabətlilik Hesabatını oxudum və Azərbaycanımla yenidən fəxr elədim"

- Qlobal Rəqabətlilik Hesabatını elə dünən gün ərzində bənd-bənd oxudum və hər zaman olduğu kimi, dövlətimlə və Azərbaycanımla yenidən fəxr elədim. Mövcud iqtidarın apardığı məqsədyönlü, ağıllı siyasət, Cənab Prezidentin müdrikliyi bizi bu yerlərə gətirib çatdırıb. Azərbaycan həmin hesabatda, demək olar əksər maddələr, məsələn, biznez mühitinin münasibliyi, müsbət ideyaların dəyərləndirilməsi, normativ-hüquqi aktların hazırlanması və s. indikatorlar üzrə ön sırada yer alıb. Bu isə, o deməkdir ki, ölkəmizin inkişafı, balanslı siyasətin nəticələrindən doğan məntiqli yüksəliş göz qabağındadır, yolumuz düz və ağıllı yoldur. Təsəvvür edin ki, Azərbaycan biznesin dinamikliyi reytinqi üzrə 140 ölkə arasında 31-cidir və dünyanın özündən deyən dövlətləri bu sıralamada bizdən qat-qat geridədir. Təbii ki, bütün bunlar ölkə başçısının birbaşa rəhbərliyi ilə aparılan davamlı iqtisadi islahatların nəticəsidir. Əgər Azərbaycan uzun illər bundan öncə, az qala bütün planetin dad çəkdiyi iqtisadi böhrandan üzü ağ çıxdısa, siyasi hakimiyyət vətəndaşını ümumbəşəri bəladan qoruya bildisə, həmin böhranı öz insanına hiss elətdirmədisə, demək, ölkədəki islahatlar, həqiqətən də, müdrik strategiyaya əsaslanır. Belə olan halda isə, Azərbaycan, heç şübhəsiz ki, hazırda haqqında danışdı-



ğımız hesabatın ən ön sıralarında yer almalı idi və aldı da. Prezident İlham Əliyevin rəhbərliyi ilə biz hələ çox uğurlara və nəticələrə nail olacağıq. Buna hər bir ölkə vətəndaşı əmindir.

### Milli QHT Forumunun prezidenti Rauf Zeyni: "Reytinq siyahısında uğurlu nəticə Prezident İlham Əliyevin apardığı siyasətin nəticəsidir"

- Son 15 ildə Prezident İlham Əliyevin apardığı milli, bəşəri və mütərəqqi siyasət Azərbaycan Respublikasını dünya miqyasında inkişaf eləmiş bir ölkəyə çevirib. Azərbaycan öz açıq, bəşəri, eyni zamanda, regional siyasəti ilə elan edib ki, bütün dünyaya açıq, əməkdaşlığa hazır və tərəfdaşlıq üçün ən etibarlı ölkədir.

Ölkə Prezidenti dəfələrlə vurğulayıb ki, "biz nəinki ikitərəfli formatda, həm də, üçtərəfli formatda müstəqil xarici siyasət aparırıq". Aparılan düzgün xarici siyasət Azərbaycanın böyük gələcəyindən xəbər verir. Ölkə Prezidentinin apardığı siyasətin nəticəsi olaraq həm Şərqlə, həm Qərblə, ümumiyyətlə, dünyanın bütün beynəlxalq təşkilatları ilə əməkdaşlığın real nəticələrini biz bu gün görürük. Bugünkü güclü, qüdrətli Azərbaycan Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin və ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi xeyirli və gərəkli fəaliyyətnin bəhrəsisdir. Azərbaycan dünyada mədəniyyət, turizm, iqtisadi, mənəvi-humanitar forumlar və dialoqlar mərkəzi kimi tanınır. Artıq Azərbay-



can həm vəhdət mərkəzi kimi tanınır ki, burada həm də dini nöqteyi-nəzərdən müxtəlif mənsəblərin nümayəndələri, eyni zamanda, Heydər Məscidində vəhdət namazı qılırlar və bununla, dünyaya bir örnək göstərirlər. Bunların hamısı Azərbaycan xalqı və dövləti üçün çox böyük nəticələr və nailiyyətlərdir ki, bunları bir vətəndaş, ekspert və QHT-nin nümayəndəsi kimi böyük fəxrlə qeyd edə bilərik. Dünya İqtisadi Formunun açıqladığı hesabatda Azərbaycanın ötən illərə nisbətən bu il reytinq siyahısında bir qədər də irəliləməsi ölkə Prezidenti İlham Əliyevin apardığı siyasətin nəticəsidir.

### AGAAMC-nın sədri, fəlsəfə üzrə fəlsəfə doktoru İlqar Orucov: "Bu göstəricilər növbəti illərdə daha da yüksələcək"

- Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılığının artırılması, şaxələndirilməsi və neft amilindən asılılığının aradan qaldırılması məqsədilə həyata keçirilən islahatlar, artıq bəhrəsini verməkdədir və bu proses yaxın gələcəkdə daha da hiss olunacaq. Dayanıqlı inkişafa nail olmaq üçün ölkə başçısı tərəfindən üç dövrü əhatə edən "Strateji Yol Xəritəsi" təsdiqlənib. Kiçik və orta biznesin inkişafı üçün münbit şərait yaradıldı, ölkəmizdə müasir sənayeləşmə prosesi genişləndi və əhalinin yeni iş yerləri əldə etməsi üçün imkanlar yaradıldı.

Struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar həyata keçirildi, Azərbaycan yeni iri transmilli layihələrin əsasını qoyaraq nəinki regionda, eləcə də Avrasiya məkanında iqtisadi manevr imkanlarını genişləndirdi. Digər tərəfdən, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilərək bütün sahələrdə şəffaflıq və effektiv idarəetmə təmin edildi. Ölkəmizin tranzit imkanlarından, mövcud təbii geopolitik məqamdan tam gücü ilə istifadə olunması düzgün qiymətləndirildi və Bakı-Tbilisi-Qars dəmir yolu istismara verildi. Avropa ilə Asiyanı birləşdirən tarixi ipək yolunun imkanları realizə olunmaqla Azərbay-



can mühüm nəqliyyat qovşağına çevrildi və əlbəttə bu da ölkəmizə yeni iqtisadi dividendlərin gətirilməsi deməkdir. Azərbaycan qazının Avropa bazarlarına çatdırılması istiqamətində qurulan nəhəng layihələri, xüsusilə, qeyd etmək lazımdır. Cənab Prezidentimiz İlham Əliyevin memarı olduğu və gələcəyə hesablanmış uzunmüddətli və strateji uğurlar vəd edən iqtisadi layihələr təbii ki, ölkəmizin həm iqtisadi gücünü artırır, həm siyasi nüfuzunu və önəmini ortaya qoyur. Artıq demək olar ki, iqtisadiyyatın şaxələndirilməsi prosesi tam başa çatmışdır. Bunun nəticəsidir ki, ölkəmizin ümumdaxili məhsulunun 70 faizindən çoxunu qeyri-neft sektorundan gələn gəlirlər təşkil edir. İxracın şaxələndirilməsi prosesi də uğurla həyata keçirilir. Nəzərə almaq lazımdır ki, bu gün Azərbaycan, faktiki olaraq, müharibə şəraitində yaşayır və milli gəlirlərimizin əhəmiyyətli hissəsi hərbi-sənaye kompleksinin genişlənməsinə, ölkənin müdafiə qüdrətinin yüksəldilməsinə, doğma yurd-yuvalarından didərgin düşmüş həssas bir təbəqənin sosial şəraitinin yaxşılaşdırılmasına yönləndirilir. Bütün bunlar iqtisadiyyatımıza nə qədər əlavə yük olsa da, dünyada gedən qlobal iqtisadi böhranın təsirləri fonunda milli iqtisadiyyatda əsaslı irəliləyiş özünü göstərir. Artıq hamı başa düşür ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin siyasi iradəsi ilə qarşıda daha ciddi uğurların qazanılmasına nail olacağıq. Qəbul olunmuş məqsədli proqramlar, iqtisadi uğurlara aparacaq. Təbii ki, birmənalı olaraq, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatının Azərbaycanın iqtisadi göstəricilərini ən yüksək formada qiymətləndirməsi də təsadüf deyil, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində məntiqli, düşünülmüş şəkildə həyata keçirilən islahatların göstəricisi deməkdir və əminəm ki, bu göstəricilər növbəti illərdə daha da yüksələcək.

**GÜLYANƏ**

# UNEC "Təhsil almaq üçün hansı universiteti seçərdiniz?" nominasiyasının qalibi olub



Mektebgushesi.az təhsil portalının ali təhsil müəssisələri arasında "Təhsil almaq üçün hansı universiteti seçərdiniz" nominasiyası üzrə keçirdiyi sorğunun nəticələri açıqlanıb. Sorğuda əsasən valideyn və abituriyentlər iştirak ediblər. Ölkənin 43 ali təhsil müəssisəsinin təmsil olunduğu sorğunun nəticələri 27.431 respondentin səsverməsinə uyğun müəyyənləşib. Sorğuda Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 8311 səslə birinci olub.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, rektor Ədalət Muradovla görüşdə təhsil ekspertləri universitetdə son illər həyata keçirilən yeniliklərdən bəhs ediblər. UNEC-in qısa vaxtda ölkənin ən innovativ ali təhsil müəssisəsinə çevrildiyindən söz açan qonaqlar bu nailiyyətlərin sorğunun nəticəsində də özünü göstərdiyini vurğulayıblar. Ekspertlər son 4 ildə II ixtisas qrupu üzrə ən yüksək bal toplayanların universitet seçimində UNEC-ə üstünlük verməsini yüksək qiymətləndiriblər.

Görüşdə mektebgushesi.az təhsil portalının təsisçisi və baş redaktoru Məzahir Məmmədli sorğunun keçirilməsinin əsas məqsədini açıqlayaraq, səsvermənin monitorinqi, ekspert rəyləri və nəticələr barədə məlumat verib. Ə.Muradov deyib ki, əsas hədəf UNEC-i dünya səviyyəli universitetlər sırasına çıxarmaqdır. Rektor sorğunun təşkilinə görə təhsil portalının rəhbərinə və ekspertlərə təşəkkürünü bildirib. Sonra UNEC-in rektoruna "Təhsil almaq üçün hansı universiteti seçərdiniz" nominasiyası üzrə sorğunun diplomu təqdim olunub.

# Müdrik siyasət son 15 ildə Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib

## *İlham Əliyev: "Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir"*




***Bu gün aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində Azərbaycan müasir dünyanın inkişaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevrilib. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir. Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsinə baxmayaraq, son 15 ildə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar nailiyyətlər əldə edilir.***

### DÜNYANIN NÜFUZLU TƏŞKİLATLARININ AZƏRBAYCANIN MÖVQEYİNİ DƏSTƏKLƏYƏN QƏRAR VƏ QƏTNAMƏLƏR QƏBUL ETMƏSİ ÖLKƏMİZİN SEÇDİYİ YOLUN DÜZGÜN OLDUĞUNU TƏSDİQLƏYİR

Bütün sahələrdə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndərin irsinin layiqincə yaşadılması dayanır. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk ilində KİV-lər tərəfindən Ona ünvanlanan "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına "Həm çətin, həm də asan. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində, Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır" deyə cavab verir. Bəli, həmin tarixdən 15 il ötür və bu illər ərzində, Azərbaycan uğurlu inkişaf tarixini yaşayıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Ümummilli Lider Heydər Əliyev siyasəti davam etdirilir. Dövlət başçısı İlham Əliyev bütün bu illər ərzində, Ulu Öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirmişdir. Onun rəhbərliyi altında ölkədə iqtisadi islahatlar sürətləndirilmiş, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı qəbul edilmişdir. Bu da Azərbaycanın Cənubi Qafqazda lider dövlətə çevrilməsinə xidmət etmişdir. Prezident İlham Əliyevin dərindən düşünülmüş daxili islahatları və ölçülüb-biçilmiş xarici siyasəti sayəsində hazırda Azərbaycan dinamik inkişaf edən ölkədir.

### HƏYATA KEÇİRİLƏN KOMPLEKS İSLAHATLAR, GENİŞ QURUCULUQ İŞLƏRİ VƏ YARADILAN GÜCLÜ İQTİSADİYYAT AZƏRBAYCANIN ƏSAS İNKİŞAF GÖSTƏRİCİLƏRİDİR

Regionların sosilal-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişib, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır.

Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbul və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib. Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq və sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Son 15 ilin reallıqları, bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar və həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir" deyən Cənab Prezident, son 15 il ərzində, regional inkişaf proqramlarının icrasının nəticələrinin göz qabağında olduğunu bildirib. Bütün mövcud iqtisadi problemləri, insanları narahat edən sosial məsələləri əhatə edən dövlət proqramları ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yara-

dıb.

### "DÜNYA BİRLİYİ BU GÜN BİZİ DƏSTƏKLƏYİR"

Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 15 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. "Bu hadisə, təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində" deyən Prezident İlham Əliyev Azərbaycan əleyhinə birləşən qüvvələrə qarşı bu inam və diqqətin ölkəmizin gücünü və iradəsini bir daha ortaya qoymuş oldu. Ölkə başçısının bildirdiyi kimi, "dünya birliyi bu gün bizi dəstəkləyir".

### "BU GÜN AZƏRBAYCAN ÖZ MƏHSULUNU İXRAC EDİR VƏ PEYKLƏRİN FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ ÖLKƏMİZƏ VALYUTA GƏLİR"

Azərbaycan özünün telekommunikasiya peyki olan azsaylı ölkələr sırasındadır. 5 il bundan əvvəl, "Azerspace 1" orbitə buraxılması bir daha təsdiqlədi ki, bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb. Sözsüz ki, bu Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətdir. Eyni zamanda, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır: "Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar və qələbələr yolu ilə gedəcək."

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək.

### AZƏRBAYCAN, SÖZÜN HƏQİQİ MƏNASINDA, DÜNYADA TOLERANTLIĞA NÜMUNƏ OLAN ÖLKƏDİR

Bu gün Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edir və multikultural bir dövlətdir. Tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib.

Azərbaycan, sözün həqiqi mənasında, dünyada tolerantlığa nümunə olan ölkədir. Bu, bütün dünyada qəbul olunur. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə malik olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir. Azərbaycan, demək olar ki, yəhudilərin İsraildən sonra ən azad dini icma şəklində fəaliyyət göstərdiyi bir ölkədir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin güclənməsinə də töhfələrini verməkdədir.

Multikulturalizm, dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi təzahür edir. Prezident İlham Əliyevin "multikulturalizm Azərbaycanda həyat tərzidir" fikri bu sahədəki reallıqların ən aydın təzahürüdür. Azərbaycan Prezidenti Cənab İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Mən hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Həqiqətən də, belə oldu: O, hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən on beş il aydın şəkildə göstərdi ki, İlham Əliyev prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Xırdalanda vətəndaşları qəbul edib



Dövlətimizin başçısının tapşırığına əsasən, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov oktyabrın 17-də Abşeron rayonunun inzibati mərkəzində - Xırdalan şəhərində 10 şəhər və rayonun sakinləri ilə görüşüb. Arzu Rəhimov Sumqayıt şəhəri, Abşeron, Şuşa, Qubadlı, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər və Xocalı rayonlarından olan vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Arzu Rəhimov və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Heydər Əliyev Mərkəzində Ulu Öndərin büstünü ziyarət edərək önünə tər güllər düzüblər.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Xırdalandakı Heydər Əliyev Mərkəzinin konfrans zalında vətəndaşları qəbul edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin müvafiq şöbə və bölmələrində işə qəbul və ya həqiqi hərbi xidmətlə bağlı olub. Həmçinin hərbi xidmətə gedəcək gənclərin xidmət ərazilərini öncədən öyrənmək, çağırışçının yenidən tibbi müayinəyə cəlb olunması kimi müraciətlər də dinlənilib. Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırmadan sonra cavablandırılacağı bildirilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin səlahiyyətlərinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Qəbulu gələn bütün vətəndaşların ərizə, təklif və tövsiyələrinə baxılıb.

## Bu il Azərbaycana 193 ölkədən 2,2 milyon əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib



Cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana dünyanın 193 ölkəsindən 2 milyon 208,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gələnlərin 31,2 faizi Rusiya Federasiyası, 19,8 faizi Gürcüstan, 10 faizi Türkiyə, 9,2 faizi İran, 3,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 3 faizi Səudiyyə Ərəbistanı, 2,7 faizi İraq, 2 faizi Ukrayna, 1,5 faizi İsrail, 17,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 65,3 faizi kişilər, 34,7 faizi qadınlar olub.

Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 8,4 faizi yanvar, 7,5 faizi fevral, 12,5 faizi mart, 9,9 faizi aprel, 9,4 faizi may, 12,2 faizi iyun, 15 faizi iyul, 14,6 faizi avqust, 10,5 faizi sentyabr ayında ölkəyə gəlib.

Doqquz ayda Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə ölkəmizə gələn Bəhreyn vətəndaşlarının sayı 2,2 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,1 dəfə, Küveyt vətəndaşlarının sayı 2 dəfə, Qətər vətəndaşlarının sayı 1,7 dəfə, İraq vətəndaşlarının sayı 14,4 faiz, Oman vətəndaşlarının sayı 7,6 faiz artıb. İrandan gələnlərin sayında 32,7 faiz, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 6,7 faiz azalma müşahidə edilib. Ümumilikdə Körfəz ölkələrindən 467,8 min nəfər gəlib və ölkəmizə gələnlərin demək olar ki, hər 5 nəfərindən 1-i bu ölkələrin vətəndaşları olub. Yanvar-sentyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,9 faiz artaraq 88,9 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,7 faiz artaraq 813,7 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 56,1 faizi dəmir yolu və avtomobil, 42,9 faizi hava, 1 faizi isə su nəqliyyatından istifadə edib.

9 ayda xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı 3,5 milyon nəfər olub

Cari ilin yanvar-sentyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,1 faiz artaraq 3 milyon 562,9 min nəfər olub. Ölkə vətəndaşlarının 30,7 faizi İrana, 30,3 faizi Gürcüstana, 19,4 faizi Rusiya Federasiyasına, 13,2 faizi Türkiyəyə, 1,6 faizi Ukraynaya, 1 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib. Səfər edənlərin 66,4 faizi kişilər, 33,6 faizi qadınlar olub.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 53,2 faiz, Gürcüstana gedənlərin sayı 2,7 faiz artıb, Rusiya Federasiyasına gedənlərin sayı 1,4 faiz, Türkiyəyə gedənlərin sayı 1,3 faiz azalıb. Üç rübdə xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 80,3 faizi dəmir yolu və avtomobil, 18,9 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

# Səbail rayonunda 18 Oktyabr Dövlət Müstəqilliyi Günü qeyd olunub






Dünən YAP Səbail rayon təşkilatı və Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Dövlət Himni səsləndirildikdən sonra Azərbaycanın müstəqilliyindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbir iştirakçılarını Müstəqillik Günü münasibətilə təbrik edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını müsəlman dünyası üçün möhtəşəm və eyni zamanda, hər bir azərbaycanlı üçün qürur mənbəyi olan əlamətdar hadisə olduğunu vurğulayıb: "23 ay - qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti bir çox mütərəqqi işlərə imza atıb, müstəqil dövlətçilik ənənələri yaratdı, hüquqi dövlət bazası formalaşdırıb. Şərqdə qadınlara ilk dəfə səsvermə hüququ bəxş etdi və bu kimi bir sıra islahatlar həyata keçirdi. Azərbaycanın dünyada müstəqil dövlət kimi tanınması üçün əlindən gələni edən Azərbaycan Xalq Cümhuriyyəti dövrün obyektiv və subyektiv səbəblərindən süquta uğradı.

Millət vəkili onu da bildirib ki, xalqın təkidi və dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunun əsası qoyuldu: "Qısa müddət ərzində, dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanı düşdüyü böhran və çətin vəziyyətdən xilas edildi. Bu gün bu siyasətin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində, Azərbaycan güclü dövlət və güclü iqtisadiyyat üzərində qurulur, 15 il ərzində Azərbaycanın müstəqilliyinin dönməzliyi təmin olundu, ölkəmiz sağlam siyasi-iqtisadi sabitliyin və vətəndaş həmrəyliyinin mövcud olduğu və güclü orduya malik hüquqi, sivil və qüdrətli dövlətə çevrildi. Bütün bu nailiyyətlər göstərir ki, Cənab Prezidentin gördüyü misilsiz işlər 15 ilə sığmayacaq qədər ölçüyəgəlməz və müstəsna əhəmiyyət kəsb edən işlərdir."

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunan üzvlərə vəsiqələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

**RƏFİQƏ HÜSEYNOVA**

# Müstəqilliyimiz dönməz və əbədidir!

*YAP Yasamal rayon təşkilatında müstəqilliyimizin 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib*





***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında müstəqilliyimizin 27-ci ildönümü münasibəti ilə tədbir keçirilib. Tədbirdə öncə, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə vəsiqələr təqdim olunub.***

Sonra mövzu ilə bağlı çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirib ki, bu müstəqilliyi əldə etmək heç də asan olmayıb. "Azərbaycan SSRİ-nin tərkibindən yenicə ayrılmışdı və digər respublikalardan fərqli olaraq, ölkəmiz daha ağır və keşməkeşli yol qət edib" deyə qeyd edən T.Əhmədov, həmçinin bildirib ki, daha öncəki müstəqilliyimizin ömrü cəmi 23 ay çəksə də, bu müstəqillik tariximiz artıq 27-ci ildönümünə qədəm qoyur: "Biz, eyni zamanda, Prezident İlham Əliyevin hakimiyyətə gəlməsinin 15-ci ildönümünü də böyük qürur hissi ilə qeyd etməkdəyik. Xüsusilə, bu tariximizin əsasında Ulu Öndər Heydər Əliyev siyasəti dayanmaqdadır. Çünki 1990, 1991, 1992-ci illərdə, həqiqətən də, çox çətin dövrlər olub. 90-cı ilin yanvarında qanlı yanvar hadisəsi baş verib, 1991-ci ildə yarıtmaz siyasəti ilə ölkəmizi uçuruma aparan Ayaz Mütəllibov SSRİ-nin tərkibində qalmaq üçün referendum keçirib və həmin vaxt Ulu Öndər Heydər Əliyev Naxçıvana rəhbərlik edirdi, ona görə də, bu referendum orada keçirilmədi. 1992-ci ildə isə AXC-Müsavat iqtidarı hakimiyyətdə idi və həmin dövrlərdə baş verənləri də bir çoxları yaxşı xatırlayır.

T.Əhmədov bildirib ki, Azərbaycan xalqının çıxılmaz durumda olmasına baxmayaraq, o vaxt iqtidarda olanlar ancaq öz şəxsi niyyətlərinə, şəxsi arzularına xidmət edirdilər: "Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə və vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Məhz "Səs" qəzeti vasitəsi ilə Ümummilli Lider Heydər Əliyevə müraciət edən ziyalılara cavab verən Ulu Öndər yenicə əldə edilmiş müstəqilliyimizin qorunub-saxlanılmasında, onun bərqərar olmasında əvəzsiz və tarixi rolunu oynadı. Çünki Ulu Öndər Heydər Əliyev hələ Naxçıvanda olarkən, artıq Azərbaycanı siyasi cəhətdən idarə edirdi. Xalqımız Ona inanır, Ona güvənirdi".

"Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra - Müstəqilliyimiz dönməzdir, sarsılmazdır və əbədidir kəlamını vurğulayaraq, Azərbaycanı bütün sahələrdə inkişaf etdirməyə başladı" deyə qeyd edən Tağı Əhmədov bu gün həmin siyasətin Onun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirdiyini bildirib: "Xoşbəxt o xalqdır ki, onun Ümummilli Lideri var. Çünki lider xalqı daim irəli aparır. Azərbaycan xalqı da Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində inkişaf və tərəqqi yolundadır. Bu gün Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir".

Tədbir diskussiya və müzakirələrlə başa çatdırılıb.

**Rövşən NURƏDDİNOĞLU**

# "Azərbaycanın Müstəqillik Günü onun milli sərvətidir"

***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında 18 Oktyabr Dövlət Müstəqillik Günü münasibəti ilə təşkilatın gənclər birliyi "Azərbaycanın Müstəqillik Günü onun milli sərvətidir" mövzusunda tədbir keçirib.***



Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədr müavini Cəlal Əliyev açaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının ildönümünün hər bir azərbaycanlının böyük fəxrlə qeyd etdiyi tarixi hadisə olduğunu bildirib.

C.Əliyev qeyd edib ki, Azərbaycan xalqının ikinci dəfə müstəqilliyini elan etməsi bir əsrdə xalqımızın siyasi tarixində yaşadığı ikinci ən parlaq qələbəsi idi: "Müstəqilliyimizin ilk illərində xalqımız dünyaya bəxş etdiyi dahi insan, böyük vətənpərvər şəxsiyyət Heydər Əliyev kimi görkəmli bir siyasətçinin siyasi hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və buna nail oldu. "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

YAP Masallı rayon təşkilatının gənc fəalları Aybəniz Novruzova, Sarxan Əhmədov, Bəxtim Qarayev, Sübhan Şiriyev, Vafiq Xəlilov, Rza Rzayev, Əziz Əliyev, Nemət Abdullayev, aprel döyüşlərinin iştirakçısı Əziz Cankişizadə, və başqaları çıxış edərək, dövlət müstəqilliyinin möhkəmləndirilməsində, əbədiliyinin və dönməzliyinin təmin edilməsində müasir müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyev olduğunu qeyd ediblər. Çıxışlarda o da vurğulanıb ki, "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**R.HÜSEYNOVA**



# Müstəqilliyimiz də, dövlətçiliyimiz də əbədidir!

*Tarix təsdiq edir ki, müstəqilliyi qazanmaq çətin olduğu qədər, onu qoruyub-saxlamaq da bir o qədər də mürəkkəbdir. Bir sözlə, müstəqillik əldə edildikdən sonra onun qorunması heç də asan məsələ deyil.*

Tarixə qısaca ekskursiya etsək, görərik ki, Azərbaycan 20-ci əsrdə iki dəfə müstəqillik əldə etmək şansı qazanıbsa da, onun qorunmasına, bu günə qədər mühafizə edilməsinə yalnız ikinci dəfə nail olub. Birinci imkan zamanı əldə edilən müstəqillik xarici müdaxilələr, daxili çəkişmələr, eyni zamanda, daxili imkanların az olması səbəbindən qorunub-saxlana bilməyib və beləliklə respublikamız 70 il Sovet imperiyasının əsarətində qalıb. İkinci tarixi imkan bir də həmin imperiyanın dağılmasından, yəni 70 il keçdikdən sonra yaranıb və Azərbaycan xalqı öz milli müstəqilliyini bərpa etmək imkanını qaçırmayıb. Doğrudur, müstəqilliyin bərpasından sonra da xarici müdaxilələrin, daxili çəkişmələrin olduğunu inkar etmək olmaz. Hətta idarəçilikdə səriştəsi olmayan, eyni zamanda, xəyanətkar mövqedə olan şəxslərin bu müstəqilliyi də təhlükə altına qoyduqları da danılmazdır və sözsüz ki, tam zamanında xalqın təkidli tələbi ilə hakimiyyətə qayından Ümummilli Lider Heydər Əliyev bu təhlükəni aradan qaldırmaq əzmində idi və buna nail oldu da.

### İstiqlal mübarizəsində şəhid və qurbanlar verən bu xalq, müstəqilliyini bərpa etdiyi kimi, onu qorumaq əzmindədir

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu və xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına bu mühüm, eyni zamanda, tarixi sənədin qəbul olunması ilə qovuşdu. Həmin tarixi anın gerçəkləşməsini uzun illərdən bəri gözləyən xalq, hətta 20 Yanvar qırğınını görmüş Azərbaycan xalqı hər şeyə hazır idi və xarici müdaxiləçilər də, buna mane olmaq istəyənlər də, dərk edirdilər ki, imperiya tankları belə xalqımızın azadlığa gedən yolunun qarşısını kəsə bilməzlər. Dərk edirdilər ki, istiqlal mübarizəsində şəhid və qurbanlar verən bu xalq müstəqilliyini bərpa etmək və qorumaq əzmindədir.

"Azərbaycan dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunmasından sonra imperiyanın hakimiyyətini uzatmaq istəyənlər, elə hesab edirdilər ki, qəbul olunmuş sənəd xalqı sakitləşdirəcək. Elə hesab edirdilər ki, sakitləşmiş xalq üzərində hakimiyyəti uzatmaq mümkün olacaq. Lakin bu, belə olmadı və həmin ilin, yəni 1991-ci ilin 29 dekabr tarixində ümumxalq səsverməsi keçirildi. Səsvermə hüququ onların 95%-indən çoxunun iştirakı ilə keçirilən referendumda Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə səs verdi və ona tərəfdar çıxdı.

Xalqımızın müstəqilliyini dünya dövlətləri də tanıdı. Azərbaycan Respublikasını, ilk olaraq, 1991-ci il 9 noyabr tarixində Türkiyə Cümhuriyyəti, bunun ardınca həmin il Rumıniya, Pakistan, İsveçrə, İran, növbəti ildə isə ABŞ və Rusiya, eləcə də, başqa dövlətlər tanıdılar. Ölkəmizin beynəlxalq müstəvidə de-fakto tanınması isə Azərbaycanın BMT-yə üzv qəbul olunmasından, yəni 2 mart 1992-ci ildən başladı.

Doğrudur, çox yox, cəmi iki il sonra Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində, geniş miqyas almış Qarabağın işğalı, həmçinin, o zaman dövlət rəhbərliyində olan səriştəsiz adamların hakimiyyət davası səbəbindən, daxildə gedən siyasi çəkişmələr müstəqilliyin süqutu üçün real təhlükə idi. Məhz böyük siyasi təcrübəyə, idarəçilik və uzaqgörənlik qabiliyyətinə malik olan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı bu təhlükəni aradan qaldırdı və bu gün Azərbaycanın müstəqilliyi, haqlı olaraq, Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndərin uzaqgörən, doğru siyasəti sayəsində xalqın öz dövlətçiliyi, müstəqilliyi sarıdan heç bir narahatçılığı yoxdur və müstəqilliyimizin siyasi-iqtisadi sütunları getdikcə daha da möhkəmlənir.

### İqtisadi yüksəliş, irimiqyaslı layihələr regionda təhlükəsizliyin təmin olunmasına və müstəqilliyimizin daha da möhkəmlənməsinə zəmin yaradır

Müstəqilliyin qorunub-saxlanılması, dövlətçiliyin möhkəmləndirilməsi, həmçinin, iqtisadiyyatın inkişafı hazırda daha çox diqqət mərkəzindədir Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həmçinin, dünya miqyasında lider dövlətlərindən birinə çevrilib. Regionda ən irimiqyaslı layihələri Azərbaycan reallaşdırır və hətta regionda reallaşması nəzərdə tutulan heç bir layihə ölkəmizin razılığı və iştirakı olmadan həyata keçirilmir. Bu layihələrin həm təşkilatçısı, həm də böyük əksəriyyətinin maliyyəçisi kimi Azərbaycan çıxış edir. İrimiqyaslı layihələr, istifadəyə verilmiş dəhlizlər ölkəmizin imkanlarını, nəticə etibarı ilə iqtisadi qüdrətini durmadan artırır. Eyni zamanda, etiraf etmək lazımdır ki, bu irimiqyaslı layihələrə, Şimal-Cənub, həmçinin, Şərq-Qərb kimi dəhlizlərə maraq əhəmiyyətli dərəcədə artır və bu da, öz növbəsində, regionda, yəni Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Bütün bunlar isə, dövlətçiliyimizin və müstəqilliyimizin günü-gündən daha da möhkəmləndirilməsini əsaslı şəkildə təmin edir.

Bir sözlə, birmənalı şəkildə demək olar ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin müstəqilliyimizin əbədiliyi üçün müstəsna rolu danılmazdır. Hazırki inkişaf, tərəqqi, istər siyasi, istərsə də iqtisadi sahədə əldə olunan müvəffəqiyyətlər, məhz Cənab Prezidentin adı ilə bağlıdır. Müstəqilliyimiz də, dövlətçiliyimiz də etibarlı əllərdədir və Azərbaycan xalqı, haqlı olaraq, öz prezidentinə hər zaman etimad edir, dəstəkləyir və gələcək uğurlara da ümid edir.

***İnam HACIYEV***

# YAP Biləsuvar rayon təşkilatının 45 saylı şəhər ərazi ilk partiya təşkilatında ümumi yığıncaq keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının 45 saylı şəhər ərazi ilk partiya təşkilatında ümumi yığıncaq keçirilib. Yığıncağı giriş sözü ilə 45 saylı şəhər ərazi ilk partiya təşkilatının sədri Füzuli Sultanov açaraq, təşkilat yaranandan sonra görülmüş işlər barədə ətraflı məlumat verib.

Ümumi yığıncaqda çıxış edən YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi uğurlu iqtisadi-siyasi islahatlardan söhbət açıb. K.Mirzəyev qeyd edib ki, son 15 il ərazində Azərbaycan dövlətinin dinamik inkişafı ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsində əldə edilibdir: "Bu gün gənclərimiz Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının sıralarına həvəslə daxil olaraq, ölkəmizin inkişafına öz töhfələrini vermək istəyirlər".

K.Mirzəyev ərazi ilk partiya təşkilatının üzvlərinə ölkəmizin inkişafı naminə fəaliyyət göstərməkdə uğurlar arzulayıb. Görüşdə partiya üzvlərindən Nəsimi Sultanov, Rövşən Həsənov, Tərbiyyə Ağayeva və başqaları çıxış edərək, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasəti bəyəndiklərini və müdafiə etdiklərini bildiriblər. Yığıncağın sonunda partiyaya üzv olan bir qrup gəncə partiya vəsiqələri təqdim edilib.

***R.HÜSEYNOVA***

## Ərdoğan Mayk Pompeo ilə hava limanında görüşüb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 17-də ölkəyə işçi səfərə gələn ABŞ-ın dövlət katibi Mayk Pompeo ilə danışıqlar aparıb. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Türkiyə prezidenti Moldovaya səfər edəcəyi üçün danışıqlar Ankaranın "Esenboğa" hava limanında baş tutub və təxminən 35 dəqiqə davam edib. Qəbula Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidan, prezidentin mətbuat katibi İbrahim Kalın və ABŞ-ın Suriya üzrə xüsusi təmsilçisi James Jeffrey də qatılıb.

# Qusarda Dövlət Müstəqilliyi Günü münasibətilə tədbir keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatının qadınlar şurasının və rayonun Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 18 Oktyabr Dövlət Müstəqilliyinin bərpasının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov bildirib ki, oktyabrın 18-i Azərbaycanın yeni tarixində ən əlamətdar günlərdən biridir: "Azərbaycan Respublikasının Ali Soveti 1991-ci ildə yaranan tarixi şəraitin nəticəsi olaraq, oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edib. Lakin dövlət müstəqilliyinin ilkin mərhələsində - 1991-1993-cü illərdə xalqımız böyük çətinliklərlə üzləşib, ağır sınaqlardan keçib. Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi qorunub-saxlanılıb, möhkəmləndirilib, dönməz və əbədi xarakter alıb, respublikamız sürətli inkişaf yoluna qədəm qoyub".

Daha sonra rayon Heydər Əliyev Mərkəzinin direktoru, YAP Qusar rayon təşkilatının qadınlar şurasının sədr müavini Neva Abdurahmanova, rayon Heydər Əliyev Mərkəzinin elmi işçisi Lalə Sadirova, gənc sahibkar Nəzrin Aslanova və partiyanın fəal gənclərindən olan Fidan Kazımzadə çıxış ediblər. Çıxışlarda müstəqil Azərbaycan Respublikasının keçdiyi şərəfli yoldan, Ulu Öndər Heydər Əliyevin və Onun siyasi davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatda, sosial sahədə, ölkənin müdafiə qüdrətinin artmasında əldə olunan nailiyyətlərdən ətraflı bəhs edilib.

Tədbirin sonunda partiya sıralarına daxil olan bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

***NƏZAKƏT***

# Frankofoniya dəyər və prinsipləri saxtalaşdırdığından artıq ölüyə çevrilib

## *Fransa Beynəlxalq Frankofoniya Təşkilatından öz maraqları naminə istifadə edir*

***Təhlükəsizliyə, əmin-amanlığa, insan hüquqlarının müdafiəsinə, iqtisadi-mədəni əməkdaşlığa xidmət edən beynəlxalq tədbirlər yalnız təqdirəlayiqdir. Yetər ki, həmin beynəlxalq tədbirlər həqiqəti əks etdirsin, həqiqətən də, sadalanan dəyərlərə və insanlığa xidmət etsin. Bu baxımdan, XVII Beynəlxalq Frankofoniya Təşkilatının sammitini təqdirəlayiq hesab etmək olmaz. Çünki bu sammitdə qeyd olunan prinsiplərin biri də nəzərə alınmadı.***

Ermənistanda keçirilən Frankofoniya sammiti saxta "erməni soyqırımı" müzakirələri səbəbindən daha çox uğursuzluğu ilə yadda qaldı. Bu uğursuzluğu əvvəlcədən proqnozlaşdıranlar da haqlı idilər. Çünki Frankofoniya sammitinə Ermənistanın zərrə qədər aidiyyatı belə ola bilməzdi. Əvvəla, Ermənistanın fransız dili ilə nə əlaqəsi var idi ki, fransız dillilərin sammiti, Frankofoniya sammiti bu ölkədə keçirilirdi? Digər tərəfdən işğalçı ölkədə təhlükəsizlik, əmin-amanlıq, haqq və hüquqlar necə müzakirə mövzusuna çevrilə bilər?

### Frankofoniyanın keçmiş baş katibi təşkilatın dəyərlərə xəyanət etdiyini etiraf edir

Sammitin məhz Ermənistanda keçirilməsi təsdiq etdi ki, Frankofoniya beynəlxalq səhnədə çox yersiz və icitmai yükü olmayan bir təşkilatdır. Bir sözlə, bu təşkilat sammitini Ermənistanda keçirməklə, ermənilərin uydurduğu soyqırımdan danışmaqla öz olmayan nüfuzunu bir az da heçə endirdi. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ münaqişəsinin həllinə vasitəçilik edən ATƏT-in Minsk Qrupunun 3 həmsədr ölkəsindən biri olan Fransanın Frankofoniyanın himayədarı kimi belə bir addımı onun özünü dünya ictimaiyyətinin gözündə çox aşağı saldı. Təşkilatın saxtakarlığına artıq zərrə qədər də şübhə yeri qalmadı. Hətta təşkilatın keçmiş baş katibi Mişel Jan özünün "Twitter" səhifəsində belə etiraf edir ki, bu təşkilat dəyər və prinsipləri saxtalaşdırdığından artıq ölüyə çevrilib. Dəyərlərə və prinsplərə xəyanət edən bir təşkilatın artıq ölümcül halda olduğunu bildirən keçmiş baş katib təşkilatın dəyərlərə xəyanət etdiyini etiraf edir. Xəyanətkar bir təşkilatdan, ələlxüsus, saxtakarlığı bayraq edən qurumdan, onun sammitindən ermənilər nə isə uma bilər, amma dünya ictimaiyyəti üçün artıq bu təşkilatın, onun qərarlarının zərrə qədər dəyəri və mahiyyəti ola bilməz.

Sammit zamanı dəyərlərin və prinsiplərin ön plana çəkilməsi əvəzinə, Fransa prezidenti Emmanuel Makronla Mişel Jan arasındakı qarşıdurmalar isə bir çox məqamlara aydınlıq gətirir və bəlli olur ki, qarşıdurma heç də bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələ üstündə deyil, sırf hakimiyyət hərisliyi, hakimiyyət bölgüsü üstündə idi. Bu ambisiyaların toqquşmasından başqa bir şey deyildi. Tam aydın şəkildə görünür ki, Fransa BFT-dən öz maraqları naminə istifadə edir və indi Kanadanın baş naziri Mişel Jan Fransaya heç sərf etmir. Məhz bu səbəbdən də, dəyərlər və prinsiplər deyil, onun kənarlaşması sammitin prioritet məsələsinə çevrildi. Fransa buna nail oldu da. Ruandada 1994-cü ildə soyqırımı həyata keçirmiş dəstələrin rəhbərlərinin, məhz Fransa tərəfindən dəstəklənməsi, Hutu-Tutsi qarşıdurması nəticəsində 800 min günahsız insanın öldürülməsi hadisəsinin reallaşdığı həmin ölkəyə Fransanın keçmiş prezidenti Nikol Sarkozinin səfəri zamanı öz ölkəsinin bu soyqırımda rolunu üstüörtülü də olsa, etiraf etməsi faktları, indi isə Ruandanın xarici işlər nazirinin namizədliyini dəstəkləməsi, bunu deməyə əsas verir ki, Fransa yalnız öz maraqlarını güdür. Ruandada 2008-ci ildən sonra Birləşmiş Krallıq ilə heç bir bağlılığı və əlaqəsi olmadığı halda, fransız dilinin yerinə ingilis dilinin rəsmi təhsil dili elan edilməsi faktlarının fonunda fransız dili amili üzərində qurulan Frankofoniya təşkilatına Ruandanın xarici işlər naziri Luiz Muşikivabonun namizədliyi Fransa, onun prezidenti tərəfindən dəstəklənirsə, deməli, Fransa üçün Ruandada təhsil dili olaraq fransız dilinin ingilis dilinə dəyişdirilməsi zərrə qədər maraq kəsb etmir. Necə ki, Fransa mətbuatı Mişel Janın təşkilatın vəsaitlərini şəxsi məqsədləri üçün mənimsədiyini yazdığı halda, belə bir saxtakarın bu vaxta qədər təşkilata rəhbərlik etməsi Fransa üçün əhəmiyyətli deyildi.




### Saxtakarlar özləri də erməni saxtakarlığına məruz qalaraq sonda erməni mahnısı kimi təqdim edilən Azərbaycan havasına oynadılar

Ermənistanı sammit üçün məkan seçən Frankofoniya təşkilatı, daha doğrusu, Fransa fransız dili amilinə yenə də məhəl qoymadı və təsdiq etdi ki, bu təşkilat yalnız öz maraqlarına xidmət edir. Bu maraqların epsentrində isə, sözsüz ki, erməni lobbisi, ermənipərəst qüvvələr durur ki, onların da maraqları, görünür ki, Fransanın maraqları ilə üst-üstə düşür. Yəqin ki, şər iblisi Soros kimi donorların şər yuvası Ermənistana maraqları və maliyyələşdirməsi fonunda Fransanın da maraqlarını başa düşmək olar. İndi ermənilərin də, məhz Fransa tərəfdarı olduğu anlaşılandır və əslən Kanadadan olan Mişel Janın təşkilatın rəhbərliyindən uzaqlaşdırılması fonunda Kanadanın baş naziri Jastin Tidonun bu işğalçı ölkəyə səfəri də, sözsüz ki, Ermənistanı özünə tərəf çəkmək məqsədi daşıyır.

Amma nə Fransanı, nə də Ermənistanı öz maraqlarından savayı heç nə özünə cəlb edə bilməz və əslində, mövqeləri də üst-üstə düşür. Məsələn, işğalçı dövlət kimi Fransa da Əlcəzairi 1830-cu ildən 1962-ci ilə qədər, yəni düz 132 il öz işğalı, əsarəti altında saxlayıb və Fransa ordusunun 1954-cü ildən 1962-ci ilə qədər Əlcəzairdə törətdiyi soyqırımlar da dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Necə ola bilər ki, bu boyda soyqırımlara imza atan Fransa, indi Ermənistana təhlükəsizlik, əmin-amanlıq, insan haqq və hüquqlarının müdafiəsi dərsi keçsin? Heç kimə sirr deyil ki, Frankofoniya sammiti adlı oyunun köməyi ilə Fransa Ermənistan vasitəsi ilə Cənub Qafqazda öz iştirakını gücləndirmək niyyətindədir. Elə buna görə də, sammitin sonunda Ermənistanın çaldığı havaya Nikol Paşinyanla birlikdə bütün Frankofoniya iştirakçıları oynayırdı. Amma bir məsələni unudurlar ki, Dağlıq Qarabağ kimi, oynadıqları hava da Azərbaycan mahnısı idi və ermənilər bunu da onlara erməni havası kimi sırıyırdılar. Hər iki dövlətin saxtakarlığı sonda özünü tam aydın şəkildə büruzə verdi və saxtakar sammit iştirakçıları məntiqi nəticə olaraq erməni saxtakarlığına məruz qalaraq, sonda erməni mahnısı kimi təqdim edilən, "Duyduy", "Xurcunu", "Köçəri" və "Basqalı" kimi Azərbaycan havalarına oynadılar.

***İnam HACIYEV***

---

# Terror təşkilatının üzvləri Ermənistanda deputat olmaq istəyirlər

***Növbədənkənar parlament seçkilərinə hazırlaşan Ermənistan ictimaiyyətində siyasi gərginlik artır. AZƏRTAC-ın erməni KİV-lərinə istinadən verdiyi məlumata görə, 2 il əvvəl Yerevanda hərbi qiyam etmiş "Sasna Tsrer" terror təşkilatının azadlığa buraxılan 27 üzvü də deputatlığa iddialıdır. Öz partiyalarını yaradan bu şəxslər Yaxın Şərqdə, əsasən Livanda və Suriyada yaşayan ermənilərdən ibarət silahlı terror dəstələrinin üzvləridir. Onların əksəriyyəti Dağlıq Qarabağda Azərbaycana qarşı müharibədə iştirak edib.***



Siyasi qüvvələrin parlament uğrunda mübarizə apardıqları bir vaxtda Sünik vilayətində əhali ayağa qalxıb. Ermənistan-İran magistralını bağlayan narazı kütlə Unan Poqasyanın qubernator seçilməsinin əleyhinə çıxırlar. Bildirilir ki, Poqasyan Serj Sarkisyanın hakimiyyəti dövründə Ermənistanın polis rəisinin müavini vəzifəsini icra edib. Hüquq-mühafizə orqanlarında yüksək səlahiyyətlərə malik olan bu şəxs qanunsuz əməlləri ilə ad çıxarıb. İndi onun Sünikə qubernator təyin edilməsi yerli əhalini qəzəbləndirib. Onlar hökuməti bu qərarı dəyişməyə çağırıblar. Onlar əks təqdirdə magistralı bağlı saxlayaqaclarını iddia edirlər. Aksiya zamanı magistralın bağlanması nəticəsində ağır tonnajlı yük avtomobilləri sərhədə yaxınlaşa bilmədikləri üçün tıxac yaranıb. Bu da sürücülər tərəfindən narazılıqla qarşılanıb. Polisin müdaxiləsinə baxmayaraq, etirazçılar yolu boşaltmayıblar.

# Buzovnada evə basqın edən 2 nəfər saxlanılıb



Oktyabrın 16-da Buzovna qəsəbəsində baş vermiş quldurluq hadisəsinin üstü polis əməkdaşları tərəfindən "isti izlər"lə açılıb. DİN-dən Trend-ə verilən məlumata görə, Xəzər RPİ-nin 2-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini olan 82 yaşlı qadın həmin gün saat 18 radələrində Buzovna qəsəbəsindəki evinə girmiş 2 maskalı şəxsin onu döyərək evdən 1000 manatını və mobil telefonunu apardıqlarını bildirib.

Görülmüş təxirəsalınmaz tədbirlərlə quldurluğu törətməkdə şübhəli bilinən 2 nəfər qısa zamanda müəyyən edilib. Polis əməkdaşlarının "isti izlər"lə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri Hüseyn Əliyev və Nağdəli Dadaşov saxlanılıblar. Araşdırma aparılır.

# "Meydan" TV radikal müxalifəti bir-birinə vurdu

*Sosial şəbəkədə partiyalar və şəxslərarası virtual müharibə baş qaldırıb*

**Avropada internet üzərindən yayım edən "Meydan" TV özünün də təmsil olunduğu dağıdıcı müxalif düşərgədə vəziyyəti gərginləşdirib və hazırda sosial şəbəkədə AXCP-"Milli Şura" cütlüyü, Müsavat və "REAL" partiyaları arasında kəskin qarşıdurmalara start verilib. Məsələ yalnız bunda da deyil. Sözügedən qarşıdurmaya daha bir səbəb, demək olar ki, istənilən mövzuda tərəflərin bir-birlərinin sözlərini, düşüncələrini həzm etməmələri olub ki, bu da sosial şəbəkələrdə virtual müharibənin baş qaldırmasına köklü səbəb olub.**

### "REAL"-ın məclis sədri Erkin Qədirli köhnə müxalifətə həqiqəti söyləyib: "Bu, hakimiyyət qalmalıdır"

Xüsusilə, "REAL" partiyasının məclis sədri Erkin Qədirlinin adıçəkilən TV-yə verdiyi müsahibəsində Azərbaycan iqtidarı ilə bağlı dediyi sözləridir. O, müxalifətçi kimi siyasi mübarizə aparmağa hazır olmadığını deməklə yanaşı, müxalifəti sərt tənqid edib və onların hakimiyyətə alternativ olmadığını bildirib. Qarşı tərəflərin sərt hiddətinə və hücumlarına məruz qalan Qədirli bildirib: "Mən özümüzü hazırlıqlı saymıram, ona görə də, deyirəm ki, bu hakimiyyət qalmalıdır. Bu gün heç kim hakimiyyətə gəlməyə hazır deyil, heç kim hakimiyyəti qoruyub-saxlaya bilməz. Ona görə gərək müxalifət təcrübə toplasın".

E.Qədirli həmin müsahibəsində ənənəvi müxalifət olan AXCP və Müsavatı nəzərdə tutaraq, onları köhnə müxalifət adlandırıb, eləcə də, onların, sadəcə, siyasi manipulyasiya etdiklərini, ümumiyyətlə, hakimiyyətə gəlmək istəmədiklərini qeyd edib: "Köhnə müxalifət, deyəsən, ümumiyyətlə, təcrübə toplamaq istəmir, onlar, deyəsən, heç hakimiyyətə də gəlmək istəmirlər".

Beləliklə, həmin fikirlərdən sonra, necə deyərlər, ara qarışıb-məzhəb itib və hər zaman olduğu kimi, bu fikirlərə qarşı "Milli Şura"dan etiraz gəlib.

### "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəyli dərhal ortaya düşüb: "Varmı belə bir müxalifət partiyası?"

Söz yox ki, bunu da edən hər zaman gözlənildiyi kimi, bu qurumun koordinasiya şurasının üzvü Gültəkin Hacıbəyli olub. Belə ki, Hacıbəyli öz facebook profilində "REAL"-a qarşı sərt ifadələr işlədib. "Dostlar, dünyanın bircə ölkəsindən mənə bircə gerçək müxalifət partiyası göstərin, desin ki, hökumətin yeganə alternativi bizik, bizdən başqa bütün qüvvələr heçdir, biz isə mübarizə aparmırıq, hətta mübarizə sözünü leksikonumuzdan çıxarmışıq, tələsən yerimiz də yoxdur, hələ təcrübə toplayırıq, ona görə də hakimiyyətin hələ bir müddət qalmasını istəyirik. Dostlar, varmı dünyada belə bir müxalifət partiyası?" deyə sual edən G.Hacıbəyliyə Avropada və s. ölkələrdə fəaliyyət göstərən bir çox müxalifət partiyaları nümunə olaraq göstərilib. Belə ki, Fransada, Almaniyada, İspaniyada və s. aparıcı Qərbi Avropa ölkələrində fəaliyyət göstərən müxalifət partiyaları sübut olaraq ortaya qoyulub və nədənsə, G.Hacıbəyli bu sübutlara heç bir cavab verə bilməyib. Halbuki bu kimi ölkələrdə fəaliyyət göstərən müxalifət partiyaları zaman-zaman siyasi hakimiyyətə yiyələnməyin tez olduğunu, hətta buna hazır olmadıqlarını dəfələrlə bəyan ediblər.

### "Araşdırmaçı-jurnalist" Xədicə İsmayıl "REAL"-ın cinahından çıxış edib: "Müxalifət təcrübəsizdir"

"Harada aş, orada baş" prinsipindən çıxış edən "araşdırmaçı- jurnalist" Xədicə İsmayıl da bu məsələyə öz təbirincə münasibət sərgiləməyi özünə "borc bilib". Lakin son zamanlar bəlli səbəblər üzündən AXCP və "Milli Şura" ilə yaşadığı qarşıdurmalı münasibətlərdən dolayı uzaqdan-uzağa da olsa, "REAL" partiyasının cinahından çıxış edib. E.Qədirlinin müxalifətin hakimiyyətə alternativ olmaması barədə fikirlərini sualları ilə sübuta yetirib. SİTAT: "Təcrübəsizdirmi müxalifət? Təcrübəsizdir. Öyrənməyə meyillidirmi? Belə görünmür. Peşəkarları cəlb edirmi? Təəssüf, imkanı yoxdur. Hakimiyyətə gəlsə, bu imkandan istifadə edəcəkmi? Sual buradadır".

Beləliklə, X.İsmayıl bu vasitə ilə G.Hacıbəylinin sözlərini alt-üst edib və üstəlik, bu cür zəif, yararsız və səmərəsiz müxalifətin heç vaxt hakimiyyətə yiyələnə bilməyəcəyini sözügedən sualları ilə təsdiq edib. Nəticədə, vəziyyət daha da qızışıb, fikir və ifadələr söz savaşı həddində məcradan çıxmağa başlayıb.

### "REAL"-ın idarə heyətinin üzvü Xalid Bağırov sərt ittiham irəli sürüb: "Erkin Qədirlinin dedikləri partiyadan kənarda şüvən yaradıb"

Misal üçün, "REAL"-ın digər funksioneri - partiyanın idarə heyətinin üzvü Xalid Bağırovun öz facebook profilində paylaşdığı statusda E.Qədirlini müdafiə etməsi savaşı bir az da körükləyib: "Əsas odur ki, Erkin Qədirlinin dedikləri, "REAL" daxilində debat partiyadan kənarda şüvən yaradıb".

Nəticədə, Müsavat və AXCP funksionerləri sosial şəbəkələrdə X.Bağırovu sərt şəkildə tənqid ediblər, hətta ondan üzr istəmək tələb olunub. "REAL" funksioneri isə, nəinki üzr istəməyib, hətta digər müxalifətyönlü internet TV-si olan "Düşün" TV kanalında ona hücum edən "axecepeçilərlə" müsavatçıları "ağ yuyub, qara sərib", yəni təhqir edib. O cümlədən, onu təhqir edənləri "küçə tərbisəyizləri" adlandıraraq, bir sıra faktlarla onları susdurmağa nail olub.

### "Adamlar JEK müdiri belə ola bilmirlər, sabahları dövlət idarə etmək istəyirlər"

SİTAT: "Hər hansı bir fikri, adamı ələ salmaq fikri müzakirə etmək deyil. Bu, küçə tərbiyəsidir. Bu tərbiyəni hakimiyyətə gətirmək istəyənlərin məsuliyyətidir. İndi necə hoydu-hoydu ilə Qurban Məmmədovun, Erkin Qədirlinin üzərinə gedirlər, necə ki, 1992-ci ildə olduğu kimi, hakimiyyətdə gələcəklər və heç bir il də hakimiyyətdə qala bilməyəcəklər. Bu müzakirə deyil, şüvəndir. Xalqımızın dilində bunun bir adı var, bunu da pozğun arvadlar edir, yubkalarını başlarına qaldırırlar və bunu edirlər. Erkin Qədirlinin fikirləri yanlışdır, amma yanlışa qarşı fikir bildirərlər, şüvən qaldırmazlar. Kimlərin şüvən qopardığını yaxşı gördünüz. Niyə onların adını çəkməliyəm? Şəxsən öz adıma deyirəm, dəyər verməmdiyim insanların adlarını niyə çəkməliyəm? Adamlar JEK müdiri belə ola bilmirlər, sabahları dövlət idarə etmək istəyirlər".

### Müsavat başqanı Arif Hacılı da ortaya çıxıb: "Bu nə ədadır?.."

"REAL" funksionerinin bu kimi cavablarına uzun zamandır ortalıqlarda görünməyən Müsavat başqanı Arif Hacılı da bu cür mövqe sərgiləyib. "Xalid Bağırov yazıb ki, Erkin Qədirlinin açıqlaması "REAL" daxilində debat, kənarda şüvən yaradıb. Bu nə ədadır, yanlışlığa etiraz edənlərə qarşı nə hörmətsizlikdir?!" deyən Hacılı, nədənsə, "REAL" funksionerlərinə qarşı ən aşağılayıcı təhqirlər ünvanlayan AXCP və Müsavat üzvlərinə bir kəlmə də olsa, irad bildirməyib. Bu isə, bir daha göstərir ki, bəli, bu cür müxalifət hakimiyyətə gələ bilmək ehtimalı sıfıra bərabərdir və hətta həqiqəti qəbul etmək gücündə olmayanların elə müxalifətdə qalıb, dırnaqarası müxalifətçilik etmələri də yolverilməzdir. Çünki beləlerinin siyasi səhnədəki rolları və mövcudluqları çoxdan və tamamilə tükənib.

**Rövşən RƏSULOV**

---



## "Qrant əməliyyatı"nın Xədicəsi və nəticəsi

RƏFİQƏ

*Vaxtilə xarici donorlardan yaxşıca qrant alıb yeyənlər bu gün bir-birlərinə düşmən kəsiliblər. Xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyalar aparan bu insanları birləşdirən ancaq aldıqları imiş... Bu gün isə tam başqa bir vəziyyət yaranıb. Belə ki, hökumətin "qrant əməliyyatı"ndan sonra bir sıra qeyri-hökumət təşkilatlarının iç üzləri və qaranlıq maliyyə mənbələri ortaya çıxıb. Bu isə QHT dəllallarının canına əməlli-başlı vicvicə salıb. Sosial şəbəkələrdə və müxalifət mətbuatında "qrant alverçiləri"nin davasından əl çəkməyən X.İsmayıl yenə də öz həyasızlığını nümayiş etdirməkdədir. Özünün Facebook səhifəsində yazdığı statuslar və şərhlər X.İsmayılın nə qədər həyasız və abırsız olduğunu aydın şəkildə göstərir. Onun dövlətə xəyanətdə ittiham edilərək, həbs olunanların bir nömrəli xilasedici rolunda çıxış etməsi, bir daha onun bu qədər erməniçilik sevdasını bir daha göstərir. Bir də X.İsmayıl öz mənafeyi olmadan heç kimin müdafiəsinə qalxmaz və ən azından, buna vaxt sərf etməzdi. Səbəb, məhz xaricə çıxan qrant dəhlizinin bağlanması idi.*

### Leyla Yunusun Xədicəliyi - hər iki amil bənzər olaylardır

Maraqlısı da budur ki, bütün fəaliyyəti dövründə erməni maraqlarını üstün tutan L.Yunus bu gün də öz siyasi həyasızlığından geri qalmayır. Bu, o L.Yunusdur ki, antitürk fəaliyyətləri ilə seçilən şovinist ermənilərı də üstələyir. L.Yunusun saysız-hesabsız xəyanətləri o qədər çoxdur ki, onları sadalamaqla yekunlaşdırmaq mümkün deyil. Ancaq X.İsmayılın Vətənə xəyanətləri heç də L.Yunusdan dalda qalmayacaq. Xüsusilə də, "tərbiyəsi" ilə məşhur olan X.İsmayılı müqayisə etsək, bu müqayisədə yalnız fiziki fərqlərin olduğunu görərik. Lakin onların daxili aləmlərində mövcud olan xəbislik, satqınçılıq, donosçuluq, Vətənə xəyanət, xalqa, millətə nifrət və s. tipli amillər eynilik təşkil edər. Eyni zamanda, hər ikisində vicdan anlayışının olmamasıdır. Çünki X.İsmayılda bircə qırıq da olsa vicdan, şərəf və ləyaqət hissləri mövcud olsaydı, bu günə qədər törətdikləri rüsvayçılıqlar üzündən xalqın arasına çıxmazdı. Lakin çıxır, üstəlik, siyasi həyasızlıq nümayiş etdirir. Fəqət, o da sirr deyil ki, bu yolun yolçuları heç də uzağa gedə bilməyiblər. Çünki xalq belələrinin qarşısını dəfələrlə alıb, bundan sonra da alacaq. Xədicə buna yüz faiz əmin olmalıdır, yüz faiz!

---

## Bakıda aptekdə əczaçını bıçaqla hədələyərək kassadan 2000 manat pul götürən şəxs saxlanılıb




Paytaxtın Yasamal rayonunda quldurluq hadisəsi baş verib. DİN-dən Trend-ə verilən məlumata görə, rayonun M.Həsənov küçəsində yerləşən apteklərdən birində əczaçı işləyən Hilal Həsənov Yasamal Rayon Polis İdarəsi 29-cu Polis Şöbəsinə müraciət edərək bildirib ki, tanımadığı şəxs ona bıçaqla hədə-qorxu gələrək obyektin kassasından 2000 manat pulu quldurluq yolu ilə ələ keçirərək hadisə yerindən qaçıb.

Hadisə ilə bağlı 29-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən "isti" izlərlə həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Siyəzən rayon sakini Emin Adilov saxlanılıb. O, ifadəsində qeyd edilən hadisəni törətdiyini etiraf edib. E.Adilovun ərtafında keçirilən əlavə əməliyyat tədbirləri ilə onun paytaxtın digər rayonlarında da analoji cinayətlər törətdiyi məlum olub. Saxlanılan şəxs barəsində 29-cu Polis Şöbəsində toplanan material araşdırılması üçün Yasamal Rayon Polis İdarəsinə göndərilib. Gördüyünüz şəxsin əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa bu barədə Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə, Yasamal Rayon Polis İdarəsinə və ya 29-cu Polis Şöbəsinə müraciət edə bilərlər.

# Təhqir və söyüşlərin hərəsi "1 qəpikdən"

## Qurban Məmmədov: "İndi görürəm ki, çox düz etmişəm"

***Son günlər "Milli Şura"nın koordinasiya şurasının üzvləri Eldəniz Quliyev, Rafiq Manaflı, Gültəkin Hacıbəyli və digərləri vaxtilə adıçəkilən qurumda təmsil olunmuş "hüquq müdafiəçisi", hazırda Britaniyada yaşayan Qurban Məmmədova qarşı sosial şəbəkədə ən ağır ifadələrə söykənən təhqirlər yağdırırlar. Bu məsələdə AXCP sədri Əli Kərimlinin də "söyüş qrupu"na aid olan trollar hərəkətə keçərək, eyni istiqamətdə yol tutmaqdadırlar. Sözügedən məsələ ilə bağlı müxalifətyönlü mediaya müsahibə verən Q.Məmmədov bildirib ki, onlara veriləcək heç bir cavabı yoxdur. O, dolayı yolla qarşı tərəfləri dəli olmaqda suçlayıb və psixiki pozuntularının da həmin ifşaya dayandığına eyham vurub.***

"Onlara heç bir cavabım yoxdur" deyə sözügedən müsahibəsində danışan Q.Məmmədov sözlərini belə əsaslandırıb: "Görünür, çox narahatdırlar. Bu ifşa prosesindən sonra onların keçirdikləri hissləri yaxşı duyuram. Keçmiş olsun".

### "Keçirdikləri hissləri yaxşı duyuram, keçmiş olsun"

Maraqlıdır ki, "hüquq müdafiəçisi" baş verənləri daha öncədən gözlədiyini də bildirib, eyni zamanda, bu addıma getməsinə haqq qazandırıb: "Bu yola mən təsadüfən çıxmamışam. 25 illik müşahidələrimdən sonra, qərara gəldim ki, Azərbaycanda bu gün müxalifət adı altında fəaliyyət göstərən bir dənə də olsun müstəqil qüvvə yoxdur. Təkbaşına, yalnız xalqın yardımı və köməyi ilə bu işi görmək qərarına gəldim. İndi görürəm ki, çox düz etmişəm".



### "Sevinc Osmanqızını cəzalandıracam"

Onu da qeyd edək ki, Q.Məmmədovun rəhbəri və təsisçisi olduğu, internet üzərindən yayımlanan "Azerifreedom" kanalının bağlanması ilə əlaqədar ABŞ-da yaşayan və "Milli Şura" ilə bağlılığı olan Sevinc Osmanqızı müvafiq yayım şirkətlərinə şikayət edib. Lakin Q.Məmmədov bu şikayətlərə rəğmən, digər vasitələrlə canlı yayıma çıxaraq, "Milli Şura" rəhbərlərini və onlara dəstək verənləri ifşa edəcəyini deyib. O cümlədən, S.Osmanqızıya da barmaq silkələməyi unutmayıb. "Belə ki, "kanalımız bağlanmayıb, 3 aylığa canlı yayım qadağan edilib" deyən "hüquq müdafiəçisi" sözlərini bu cür ifadə edib: "Sevinc Osmanqızı şikayət edib ki, onun mənim haqqımda Cəmil Həsənli və Tofiq Yaqublunun iştirakı ilə yaydığı süjetlərdən istifadə etmişəm. "Youtube"un qaydalarına uyğun olaraq, şikayətçi şikayətini geri götürməsə, "Youtube" belə qərar qəbul edir. Canlı yayımlarımız Facebookda, "Azerifreedom" səhifəsində, eləcə də, "Odnoklassniki", "V Kontakte", "Periskop" və əlavə 5 sosial şəbəkədə davam edəcək. Facebookda yayımlayandan sonra verilişlərimizi hazır video kimi "Youtube"a yerləşdirəcəyik".

Lakin Q.Məmmədov S.Osmanqızını cəzalandıracağını da istisna etməyib. Qarşı tərəfin onun internet kanalı ilə bağlı şikayətini 3 saat ərzində geri götürməyə vaxt verdiyini, ancaq qarşı tərəfin onun xəbərdarlığına məhəl qoymadığını deyən Q.Məmmədov bildirib: "3 saat vaxta əməl etmədiyinə görə, mən də onu nə vaxtsa cəzalandıracam. İndi kimin kim olduğu bilindi".

### "Əli Kərimli mənimlə "Zabitlər parkı"nda 2 saat söhbət edib"

"Milli Şura"dan nə üçün çıxarıldınız" sualını cavablandıran Q.Məmmədov, eyni zamanda, bildirib ki, o, heç də həmin qurumdan çıxarılmayıb və ölkədə olduğu zaman AXCP sədri Əli Kərimli onu geri çağırmağa çalışıb: "Mən "Milli Şura"dan çıxarılmamışam. Məni "Milli Şura"ya qaytarmaq üçün Ə.Kərimli mənimlə "Zabitlər parkı"nda 2 saat söhbət edib. Bunu deyənlərin (Cəmilin, Gültəkinin, Rafiqin və s.) əxlaqı yerində deyil..."

Beləliklə, ona hücum edənlərin hər birinin xəyanətkar və satqın olduğunu önə sürən Q.Məmmədov onların hər birinin istənilən an arxadan zərbə vuracaq qədər xain olduğunu bildirib: "Bunlarla müharibəyə getmək olmaz. Arxadan vurarlar".

**Rövşən NURƏDDİNOĞLU**

# Leyla Yunus özünü ifşa edib: "Məhkumlar mənim holland nömrəmə zəng edirlər"

## "SDİ" rəhbəri digər etiraflarını da edəcəkmi?

***"Sülh və Demokratiya İnstitutu"nun Hollandiyada yaşayan rəhbəri Leyla Yunus bu dəfə özü-özünü ifşa edib. Məsələ ondadır ki, hazırkı vaxta qədər "siyasi məhbus" siyahılarını tərtib edərkən, guya bunu rüşvət və pul müqabilində etmədiyini car çəkən "SDİ" rəhbəri, əslində, həmin iddiasının doğru olmadığını dolayısı ilə etiraf edib.***

Rusiyada dərc edilən "Nastoyaşoye vremya" qəzetinə Azərbaycanda "siyasi məhbuslar"ın olduğunu iddia edən L.Yunus açıqlamasında bildirib ki, Bakı həbsxanalarındakı "siyasi məhbuslar" tez-tez onun holland nömrəsinə zəng edib, situasiyanı danışırlar: "Biz, "siyasi məhbus" siyahılarında bütün informasiyaları toplayırıq. Hazırda mənim holland nömrəmə Bakının islah-əmək müəssisələrindən mütəmadi olaraq, birbaşa zənglər edirlər ki, vəziyyət barədə danışsınlar".

### Bütün bunlar, bilavasitə L.Yunus tərəfindən etiraf edilirsə, "siyasi məhbus" adlandırdığı fərdlər hansı "narazılıqlardan" çıxış edirlər?

Məhz bu ifadələrdən açıq-aydın görünür ki, əslində, Rusiya jurnalistlərinin ona ünvanladığı sualdan vəcdə gələn "SDİ" rəhbəri anidən cavab orientasiyasını itirib və həqiqəti etiraf edib.



Daha doğrusu, "siyasi məhbus" siyahılarına ad və soyadları əlavə etmək üçün dustaqlarla telefon danışıqları apararaq, onlarla qiymətləşib!

L.Yunusun bu etirafları ətrafında belə bir sual yaranır: "Siyasi məhbus"lar üçün heç bir şəraitin yaradılmadığı, guya onların "əziyyət" çəkdikləri barədə hay-həşir salan "SDİ" rəhbəri izah edə bilərmi ki, əgər şərait yoxdursa, onda Bakıdan necə zənglər edilir? Yaxud həbsxanalarda dustaqlarla "qeyri-insani" davranılırsa, bu zaman onlara telefonla danışmaq, özü də Hollandiyaya zəng etmək imkanı necə yaranır? Ümumiyyətlə, dünyanın harasında dustaqlara bu qədər münasib şərait təşkil olunur? Bütün bunlar, bilavasitə L.Yunus tərəfindən etiraf edilirsə, "siyasi məhbus" adlandırdığı fərdlər hansı "narazılıqlardan" çıxış edirlər?

### Bilən-bilir ki, "SDİ" rəhbəri bütün bu vəsaitləri, bilavasitə "siyasi məhbus" predmeti-biznesi vasitəsi ilə qazanıb

Digər bir məsələni də "SDİ" rəhbərinə sual olaraq ünvanlaya bilərik. Bəlkə siz yalan deyirsiniz, L.Yunus? Belə ola bilməzmi: rusiyalı jurnalistlər qarşısında öz çəkinizi artırmaq üçün yalan da danışa bilməzsinizmi? Fakt budur ki, yalan danışsa da, danışmasa da, bu qondarma hüquq müdafiəçisi hələ də xaricdəki villalarını, yüz minlərlə valyutalara malik olmasını necə, hansı üsullarla əldə etməsi barədə bir dəfə də olsun hesabat olaraq təqdim etməyib. Təqdim etməsə belə, bilən-bilir ki, "SDİ" rəhbəri bütün bu vəsaitləri, bilavasitə "siyasi məhbus" predmeti-biznesi vasitəsi ilə qazanıb. O, yaxşı olardı ki, bu etirafını da etsin. Zatən, rusiyalı jurnalistlərin suallarını cavablandırarkən, digər etirafını etdi...

**Rövşən RƏSULOV**

## Lənkəranda soyğunçuluq etməkdə şübhəli bilinən şəxs saxlanılıb

Lənkəran Şəhər-Rayon Polis Şöbəsinə oktyabrın 8-də Gərmətük qəsəbə sakini olan azyaşlı qızın qulağındakı bir cüt qızıl sırğasının naməlum qadın tərəfindən açıq talama yolu ilə alınması barədə müraciət daxil olub. DİN-dən Trend-ə verilən məlumata görə, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən şəhər sakini E.İsmayılova qısa müddətdə müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb. Araşdırma aparılır.






## "Nar" abunəçilərinə pulsuz danışıq dəqiqələri hədiyyə etdi

Hər zaman yenilikləri və maraqlı layihələri ilə seçilən "Nar"-ın, abunəçilər və sosial şəbəkə istifadəçiləri üçün elan etdiyi ""Nar"-ı nə qədər yaxşı tanıyırsan?" müsabiqəsi yekunlaşdı. 10-12 oktyabr tarixləri arasında internet üzərindən keçirilən müsabiqədə iştirak edənlərin hamısı mobil operator tərəfindən pulsuz danışıq dəqiqələri qazanandılar.

https://www.nar.az/nar-questions.html səhifəsində keçirilmiş müsabiqədə dörd mindən çox insan iştirak edib. Mobil operator haqqında verilən bütün suallara düzgün cavab verən 50-dən çox insan 250 şəbəkədaxili, yarışda iştirak edib nömrəsini qeyd edən 3400-dən çox istifadəçi isə 50 şəbəkədaxili dəqiqə qazandı. "Nar"-ın sosial şəbəkə hesablarında keçirilmiş müsabiqədə suallar mobil operatorun məhsulları, kampaniyaları, xidmətləri, korporativ sosail layihələri (KSM) və sponsorluq faəliyyəti haqqında olub.

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Məhəmməd Hadi, Abdulla Şaiq, Zərdabi və qadın hüquqları

***Cəmiyyət öz inkişafı istiqamətində, daim müəyyən təbəddülatlarla şərtlənən sosial-siyasi hadisələrin baş verməsi ilə səciyyələnən bir toplum olmaqla, problemlərin həlli yolunda mümkün olan bütün metod və vasitələrdən istifadə edir. Azərbaycanın ədibləri, ədəbi tənqidçiləri, şairləri və dramaturqlarının əksəriyyəti öz yaradıcılığında zamanın aktual problemlərinə, cəmiyyətdəki sosial-siyasi hadisə və proseslərə, ayrı-seçkiliyə öz münasibətini bildirmiş, çatışmazlıqların aradan qaldırılması yollarını göstərməyə çalışmışlar. Cəmiyyətin inkişafı nəticəsində, bu problemlərin bir qismi həll olunmuş, bəziləri isə günün ən aktual problemi kimi hələ də qalmaqdadır. Bu problemlə bağlı Azərbaycan maarifçiləri də dəfələrlə öz fikirlərini söyləmiş və problemin aradan qalxması istiqamətində mülahizələrini irəli sürmüşlər.***

Görkəmli ədiblərimizdən H.Zərdabi M.F.Axundova yazırdı: "Nə işə ixtiyar sahibisiniz, görünür, dincəlmək istəyirsiniz. Allah rahatlıq versin, ancaq elə fikirləşməyin ki, xalqın maariflənməsi bir məqalə, ya pyeslə düzələsi şeydir. Xeyr, burada görüləsi iş çoxçoxdur! Bu yolda külüng vura biləcək onlarla adamın həyatı və əməyi də bu iş üçün azdır. Bəlkə sizi belə bir şey düşündürür ki, nə üçün başqa birisi deyil, məhz siz, özü də müftə, bir quru "çox sağ ol" eşitməyə belə ümidimiz olmadan, bu barədə zəhmət çəkəsiniz. Onda mən məcburam deyəm ki, xalqa, sənə doğma olan xalqa məhəbbətdən, avamların maariflənməsindən söhbət gedən yerdə bu sual ortaya gəlməməlidir; xalqın, həm də geridə qalmış avam xalqın, sənin və mənim qardaşımın maariflənməsi işinə özünü həsr edən bir adamı belə bir fikir yoldan qoymamalıdır. O, mükafatını öz-özünə, işini görə-görə vicdanı qarşısında duyacaqdır".

Fəlsəfə üzrə fəlsəfə doktoru Zeynəddin Şabanov yazır: "Azərbaycan maarifçiliyinin mahiyyətindən və səciyyəvi cizgilərindən söz açarkən, qeyd etmək lazımdır ki, məhz bu mənəvi proses məcrasında, ilk dəfə olaraq, qadının sosial vəziyyəti haqqında məsələ qaldırılmış, qadınların hüquq və azadlıqları problemi sistemə salınmış və öz nəzəri və praktik vəzifələrinin bütün aspektlərində işlənib-hazırlanmağa başlamışdır. Bundan başqa, qeyd etməliyik ki, bu problem milli maarifçilikdə ictimai-mədəni inkişafın, Azərbaycan xalqının özünüdərkinin və birliyinin mərkəzi problemi kimi təqdim olunmuşdur.

Məşhur Azərbaycan şairi M.Hadi isə bu mövzu ilə əlaqədar yazırdı: "Qərbdə inqilabdır, Şərqdə irtica, Qərbdə qadın azaddır, Şərqdə kölədir, Qərbdə tərəqqidir, Şərqdə durğunluq". Romantik filosof elmli, yüksək mənəvi dəyərlərə və ideallara yiyələnmiş vətənpərvər övladların tərbiyə olunmasında qadının böyük rolu olduğuna diqqəti cəlb edir. Hadi qadına özü-özünü tərbiyə etməyi, daim öz üzərində işləməyi tövsiyə edirdi. Qadın əxlaqi cəhətdən təkmilləşməli, cövhərinə qoyulduğu əxlaqlılığa, insanlıq adına mənsubiyyətinə layiq olmalıdır. Üzərinə belə böyük məsuliyyət qoyulmuş qadın - ana öz dəyərini bilməli və mənəvi zənginliyini həvəs və qeyrətlə təmin etməyə çalışmalıdır. Çünki ananın mənəvi cəhətdən yoxsulluğu daha pis və acınacaqlıdır.

Hadi cəmiyyətin gələcəyi olacaq uşaqların tərbiyəsində qadınların öz məsuliyyətini dərk edib mənəvi fəqirlikdən qurtulmağı, öz üzərində işləməyi, daxilən daha güclü və iradəli olmağı, bir sözlə, hərtərəfli mənəvi inkişaf etməyi, kamilləşməyi tövsiyə edir və onun yollarını göstərir.

Qadın təkcə bioloji varlıq deyil, o, həm də sosial, əxlaqi-psixoloji və hətta ilahi varlıqdır. Qadının nəsilartırma və tərbiyəetmə funksiyası həyatda ona təbii hakimiyyət hüququ vermişdir. Hər bir cəmiyyətin mədəni inkişaf səviyyəsinin onun qadına olan münasibətilə ölçüldüyünü qeyd edən Hadi qadını azadlığın simvolu kimi qiymətləndirir. Onun qənaətinə görə, qadın hüquqları pamal olan yerdə hürriyyət, səadət və mədəni tərəqqi ola bilməz.

Vaxtilə M.Hadi bu əsrdə H.Cavidin "Pənbə çarşaf"ına cavab olaraq "Əlvahi-nəfasət" adlı bir şeir yazmış və "Məşriqdən oğlum deyir: örtün və bürünsən" misrası ilə Cavidi nəzərdə tutmuş və onun çadranı müqəddəs bir örtük kimi tərənnüm etməsinə irad tutmuşdur".

Z.Şabanov qeyd edir ki, Azərbaycan ədəbiyyatının korifeylərindən sayılan Abdulla Şaiqin orijinal yaradıcılığı geniş və zəngin ədəbi irsi bir çox tədqiqatçıların diqqətini cəlb etmiş, onun yaradıcılığını ətraflı təhlil edən monoqrafiyalar, dissertasiyalar və sanballı elmi məqalələr yazılmışdır. Bu tədqiqatçılar Şaiq yaradıcılığına müxtəlif istiqamət və prizmalardan yanaşmış, onları maraqlandıran məsələləri izah etməyə çalışmışlar. Bizim məqsədimiz Şaiq yaradıcılığında hələ öyrənilməmiş bəzi sahələrin tədqiqini aparmaqdır. Şairin əsərlərində gender asimmetriyası, qadın məsələsi və s. bu kimi problemlərin qoyuluşu, onun bütün yaradıcılığının təkamülünün əsasını təşkil edir. Bu problemlər həm XIX əsrin sonu, XX əsrin əvvəli, həm də Sovet hakimiyyəti dövrü və Böyük Vətən müharibəsindən sonrakı dövr şair yaradıcılığında öz əksini tapır.

Şaiqin əsərlərinin gender təhlili böyük maraq kəsb edir. Yaradıcılığının ilkin dövrlərində yazdığı əsərlərində şair Azərbaycan qadınlarının hüquqsuzluğu, onların kölə halına salınması, qadınlardan əmtəə kimi istifadə olunması, alınıb-satılması kimi halları təsvir edir, belə halların əleyhinə çıxırdı. 1908-ci ildə "Nişanlı qız" şeirində şair gənc qızların bol sərvəti olan yaşlı kişilərə pulla satılması, bu zaman qızın münasibətinin soruşulmaması, etiraz edən qızların döyülüb təhqir olunması, bəzilərinin həbsxanalara düşdüyünü qeyd edirdi. Belə ağır həyat şəraitini şair həbsxana vəziyyəti ilə müqayisə edirdi: "Zülmət gecədə nişanlı bir qız hüzn, kədər içində yalqız, atəşli düşüncələrlə inlər, bəxtindən şikayət eylər: "Layiqmidir, ey həyat, - söylər, div ola bir pəriylə həmsər? Heyvan kimi sərvətə satıldım, suçlu kimi zindana atıldım. Söndürdü atam çırağımı, ah, bir qönçə tikanla oldu həmrah".

Şair cəmiyyətin normal inkişafı, burada stabilliyin olması və tənəzzülün qarşısının alınması, insanlar arasında səmimi münasibətlərin bərqərar olması üçün təlim-tərbiyənin rolunun artırılmasını lazım bilir və Azərbaycan ailəsində tərbiyə funksiyasını həyata keçirən qadınların savadlı, elmli və sülhsevər olmasını gərəkli hesab edirdi. O, millətin tərəqqisini qadınların rifah halı ilə bağlayır və onları millət yolunda özünü qurban verən və əriyən şama bənzədirdi: "Qadınla hər millət eylər tərəqqi, qadındır millətin şamı, çırağı. Yıxar bir milləti, bütün məhv edər, qadınların tərbiyəsiz qalmağı. Yaşa, adın dünya durunca qalsın, millət, vətən ilə birgə ucalsın!"

Şaiq uşağın böyüdülməsi və təlim-tərbiyə almasında həm ananın və həm də atanın özünəməxsus rolu olduğunu bildirirdi. Onun, ilk öncə, ana körpəsinin hər qayğısını çəkərək onu böyütməli, təlim-tərbiyə almasında və işlə təmin olunmasında isə, ata öz funksiyalarını həyata keçirməlidir. Şaiq Avropada uşaqların düzgün tərbiyə edildiyini yüksək qiymətləndirirdi. O, Azərbaycanda bunun əksi olduğunu göstərir və qeyd edir ki, azərbaycanlı kişilər övladlarının təlim-tərbiyəsində çox zəif iştirak edir, onların vaxtında təhsil alıb, dünyəvi elmlərdən xəbərdar olmasına lazımi səy göstərmirlər. Yeniyetmə qızların erkən ərə verilməsinin geniş yayılması şairi bərk narahat edirdi. O, belə hadisələrin yaxşı hal olmadığını qeyd edir və bunun gələcək nəsillər üçün pis bir ənənəyə çevriləcəyindən ehtiyat edirdi.

Şaiq ailə və məktəb arasında bəzi paralellər aparır. O göstərir ki, tərbiyənin əsası ailədə qoyulur, oğlan və qızlara həm anası və həm anası və atası tərbiyə verməlidir. Analar, adətən, qızların psixologiyasının formalaşmasında müstəsna rol oynadıqları kimi, kişilərdə oğlanların psixologiyasında deformasiyaların əmələ gəlməsinin qarşısını alır. Əsası ailədə - ata-ana tərəfindən qoyulmuş tərbiyə məktəbdə müəllimlər tərəfindən davam etdirilir. Onun fikrincə, cəmiyyətdəki yeniləşməyə müvafiq olaraq, təlim və tərbiyə prosesində də yeni metodlardan istifadə olunmalıdır. Burada antik dövr yunan filosofu Platonun bir fikri nəzəri cəlb edir: "Siz övladınızı kəndiniz kimi bəsləməyiniz, tərbiyə etməyiniz, başqa bir üsulda tərbiyə ediniz, çünki onlar təzə bir əsr üçün doğulmuşlar. Halbuki o əsrin ehkam və icabatı başqa, sizinki isə büsbütün başqadır".

Şaiq cəmiyyətdə qadınların və kişilərin funksiyalarının fərqləndiyini, onların hərəsinin özünəməxsus rolunun insanlığın inkişafına imkan verdiyini bildirir və qeyd edirdi ki, ağır fiziki işlər kişilər üçün, incə və zərif işlər qadınlar üçün müqabildir.

Böyük şairin əksər əsərlərində ədalətin pozulması haqqında notlar vardır ki, belə hallar daim Azərbaycanın gələcəyini düşünən şairi bərk narahat edirdi.

Z.Şabanov göstərir ki, Azərbaycanın tanınmış maarifçilərindən olan Həsən bəy Zərdabi öz yaradıcılığında qadın hüquqsuzluğu məsələsinə öz münasibətini bildirmiş, cəmiyyətdə qadına qarşı bərqərar olmuş bəzi hallar, hadisələr onu çox mütəəssir etmiş və bu vəziyyətin aradan qaldırılması naminə təkliflərini vermişdir. O, eyni zamanda, qadınlara da düzgün məsləhətlər verir, davranış və qidalanma mədəniyyətini onlara izah edir, uşaqların tərbiyə olunmasının bəzi məqamlarını onlara başa salırdı. Yəni mütərəqqi fikirli bir ziyalı kimi, Zərdabi qadınların cahillikdən azad olub kamillik istiqamətində yüksəlməsinə çalışırdı. "Uşağın xörəyi" essesində, o, qadınlara bir daha öz məsləhətlərini verir, uşağın gələcək inkişafını, məhz düzgün qadalanma ilə əlaqələndirirdi: "Bizim şəriətimizdə çox arvad almaqdan murad o deyil ki, heyvan kimi anqıra-anqıra kef edəsən; ondan murad budur ki, müsəlman milləti artsın, amma bununla belə, biz görürük ki, xaçpərəst tayfası bizdən çox artır. Buna səbəb biz uşaqlarımızdan mütəvəccöh olmamaqdır, yəni bizim arvadların onları saxlaya bilməməyidir. Bəs, bizim arvadlar dişiliy çıxarıb analıq eləsə, belə olmaz. Uşağın dişi olmamağı sübut edir ki, onlar çeynənən, yəni bərk xörək yeyə bilməz, onun bədəninə belə xörək zərərdir. Uşaq gərək bir il süd əmsin və əgər onun anasının südü olmasa, gərək qeyri-süd içsin. Çox ana özü əmizdirmək istəmir, qeyrilərə əmizdirir. Belə qeyrilərə əmizdirmək o vaxtda yaxşıdır ki, uşağın anası özü naxoş ola, məsələn: sill, şankir, ya qeyri-yoluxma və ya həmişəlik naxoşluğu ola, çünki belədə o naxoşluqlar süd ilə uşağa da düşür, ona binaən, belə ana öz övladını əmizdirməməyi savabdır. Hansı ananın ki, bədəni sağdır, övladını əmizdirmək ona vacibdir".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 18 oktyabr

## Temperatur enir, viruslar hərəkətə keçir - Necə qorunaq?



Havaların soyuması ilə viruslar artmağa başlayır.Bunu açıqlamasında respublikanın baş infeksionisti Cəlal İsayev bildirib. Onun sözlərinə görə, soyuq havalarda kəskin respirator xəstəliklərin sayı artır: "Bu xəstəliklərə yoluxma, əsasən, noyabr ayının sonlarından başlayır və yaz aylarına kimi davam edir. Bu dövrdə orqanizmin ümumi müqavimətinin gücləndirilməsi vacib şərtdir. Bu da, adətən, bir sıra amillərlə bağlıdır. Bəzən orqanizmi gücləndirmək istəyənlər dərman qəbul edirlər. Bu, düzgün deyil".

Baş infeksionist bildirib ki, insanlar viruslara yoluxmamaq üçün bir sıra şərtlərə əməl etməlidirlər: "Günəş şüaları və isti hava şəraiti viruslara öldürücü təsir göstərir. Onlar soyuq havaya dözümlü olduğu üçün qış fəslində daha çox yayılır. İnsanlar xəstə olan zaman yataq rejimində qalmalı, işə gedən zaman maska taxmalıdır. Heç vaxt həkimdən icazə almadan dərman qəbul etmək olmaz. İnsanlar siqaret çəkirlər ki, bu da orqanizmin reaktivliyini zəiflədən əsas amillərdən biridir. Onun qəbulunu azaldıb, tərgitmək lazımdır.

Spirtli içkilərin istifadəsi orqanizmə zərər vurur. Ən çox qaraciyəri zədələyir ki, o, ümumi sistemdə həlledici rol oynayır.

Həyat tərzimizi də düzgün qurmuruq. İnsanlar gün ərzində səkkiz saat yatmalı, yediyi qidalara diqqət etməlidir. Süni qidalardan istifadə etmək lazım deyil. Hər şey təbii və çiy halda olmalıdır". C. İsayev qeyd edib ki, heç vaxt kolbasa məhsullarından istifadə edilməməlidir: "Pul qazanmaq üçün müəssisə rəhbərləri kolbasanın tərkibinə çoxlu maddələr qatırlar. Bu zaman bizim immun sistemimiz zəifləyir. Təzə ət, balıq, toyuq, quzu ətindən istifadə edilməlidir. İnsanlar gün ərzində üç dəfə və vaxtında qidalanmalı, çoxlu meyvə-tərəvəz və gün ərzində iki-üç litr maye qəbul etməlidir. Bunlar orqanizmin ümumi reaktivliyinin yüksəltməsini təmin edir".

## Kerç kollecində partlayış nəticəsində ölənlərin sayı 18 nəfərə çatıb

Krımın Kerç şəhərindəki texniki kollecdə baş verən partlayış nəticəsində ölənlərin sayı 18 nəfərə çatıb. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, daha 50-yə yaxın insan yaralanıb. Yaralılardan 6-nın vəziyyəti ağırdır. Partlayışı törətməkdə şübhəli bilinən şəxs intihar edib. Onun kollecin tələbəsi olduğu bildirilir. Rusiyanın Milli Antiterror Komitəsi hadisəni terror aktı adlandırıb və kollecdə partlayıcı qurğunun işə salındığını bildirib. Məlumata görə, partlayış kollecin yeməkxanasında baş verib və qurğu metal hissəciklərlə doldurulub.



## ELAN

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin politologiya ixtisasının IV kurs tələbəsi Mehtiyev Mehti Elimdar oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Bakı şəhəri İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən Nərimanov rayonu İ.Dadaşov küç, 52 №-li ev, mənzil 34 №-li mənzilində yaşayan Məmmədov Kamil Abbas oğluna verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

* * *

Məhərrəmov Rahib Həsən oğluna məxsus ACN (850929) seriya nömrəli, 99 AF 182 nömrəli qeydiyyat şəhadətnaməsi (texpasport) itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı Şəhər İcra Hakimiyyətinin Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən 02.07.2002-ci il tarixdə Sabunçu rayonu I Zabrat qəsəbə sakini İbrahimov Möhübbət Hümbət oğluna verilmiş OM seriyalı, 119128 nömrəli Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Yeniyetmə boksçularımız Avropa çempionatında iki qızıl və bir bürünc medal qazanıblar



Rusiyanın Anapa şəhərində keçirilən yeniyetmə boksçular arasında Avropa birinciliyinə yekun vurulub. Azərbaycan millisi yarışı 2 qızıl və 1 bürünc medalla başa vurub. AZƏRTAC xəbər verir ki, baş məşqçi Vaqif Kazımovun yetirmələrindən Əli Zamanov (48 kq) və Murad Allahverdiyev (80 kq) Avropa çempionu olublar. Əhməd Əhmədov (+80 kq) isə bürünc medalla kifayətlənib.

Əli Zamanov finala gedən yolda Hayk Alaberkyan (Ermənistan), Eduard Voskanyan (Rusiya), Krasimir Çurov (Bolqarıstan) və Mixail Taranunu (Moldova) məğlub edib. Təmsilçimiz final döyüşündə ingiltərəli Co Makqrailə 4:1 hesabı ilə qalib gələrək qızıl medala sahib olub.

Murad Allahverdiyev isə finalda irlandiyalı Patrik Myersi ilə görüşüb. İdmançımız 5:0 hesablı təmiz qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. M.Allahverdiyev bu döyüşədək türkiyəli Əmir Böyükdağ, belaruslu Vladislav Novikov və rusiyalı Andrey Voyvodinə də qalib gəlib. Serbiyalı Mixail Miliç və litvalı Edvin Ostapenkonu mübarizədən kənarlaşdıran Əhməd Əhmədov (+80 kq) isə yarımfinalda macarıstanlı Levent Kissə 1:4 hesabı ilə məğlub olduğundan üçüncü yeri tutub.

Çempionatda oğlanların yarışında 2 qızıl və 1 bürünc medal qazanan Azərbaycan yığması komanda hesabında üçüncü yerdə qərarlaşıb. Rusiya millisi birinci, Bolqarıstan yığması isə ikinci olub.

## Fatih Terim 2022-ci ilədək "Qalatasaray"da!



"Qalatasaray" futbol klubu, hazırkı baş məşqçisi Fatih Terimlə müqaviləni uzadıb. Türkiyə mətbuatı yazır ki, 65 yaşlı mütəxəssis 2021-2022-ci il mövsümünün sonuna qədər İstanbul klubunu çalışdıracaq. Terimin əvvəlki sözləşməsi 2019-cu ilin mayına kimi idi. Qeyd edək ki, Fatih Terim ötən ilin dekabrında 4-cü dəfə "Qalatasaray"a baş məşqçi təyin edilib. Onun rəhbərliyi ilə komanda ötən mövsüm Superliqanın qalibi olub.

## Zərif gimnastlar güclərini Bakı çempionu adı uğrunda mübarizədə sınayacaqlar

Noyabrın 2-dən 3-dək Bakı Olimpiya İdman Kompleksində bədii gimnastika üzrə növbəti yerli yarış baş tutacaq. Bu dəfə zərif gimnastlar öz güclərini Bakı çempionu adı uğrunda mübarizədə sınayacaqlar.

AZƏRTAC xəbər verir ki, sayca 25-ci olan çempionatda Ocaq Sport Klubu, Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi, Su İdman Sarayı, AyUlduz Klubu, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti, "Sərhədçi" Olimpiya İdman Mərkəzi və Zabrat İdman Klubunun yetirmələri iştirak edəcəklər.

İki gün davam edəcək turnirdə 100-dək gimnastın çıxış edəcəyi gözlənilir. Yarışların ilk günü məhz balaca gimnastların çıxışları ilə əlamətdar olacaq. Belə ki, azyaşlı gimnastlar alətsiz, ip, halqa ilə öz proqramlarını təqdim edəcəklər və günün sonunda onlar fərdi çoxnövçülükdə öz aralarında qalibləri müəyyənləşdirəcəklər. Növbəti yarış gününə isə yeniyetmələr start verəcəklər. Onlar da hakimlər qarşısına alətsiz, ip və halqa ilə çıxaraq, yüksək xal almaq üçün çalışacaqlar. Gənclər və böyüklər yaş kateqoriyasına bölünmüş gimnastlar isə halqa, top, gürzlər və lent ilə proqramlarını icra edəcəklər. Beləliklə, turnirin sonunda bütün alətlər üzrə yekun xal əsasında fərdi çoxnövçülükdə fərqlənmiş gimnastlar fəxri kürsüyə yüksələcəklər.

## Rusiya dünya çempionatından nə qədər qazanıb?

Bu yay Rusiyada keçirilən dünya çempionatının gəlirləri açıqlayıb. Yarışın Təşkilat Komitəsinin hesabatında DÇ-2018-in ölkə iqtisadiyyatına 952 milyard rubl (təqribən, 14,6 milyard dollar) gəlir gətirdiyi qeyd olunub. Rusiya dünya çempionatının təşkilinə isə 688 milyard (təqribən 8 milyard dollar) rubl sərf edib. Bu isə o deməkdir ki, Rusiydakı mundialda Braziliya, Cənubi Afrika Respublikası (CAR), Almaniya və Cənubi Koreyadakı dünya çempionatlarından daha çox gəlir əldə edilib. Bundan əlavə, Rusiyanın qarşıdakı beş il ərzində DÇ-2018-ə görə hər il 150-210 milyard rubl qazancağı gözlənilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**